

Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Füzulidən olan keçmiş məcburi köçkünlərlə görüşü ilə bağlı paylaşım edib

2



# “Zəngəzur dəhlizinin açılması ilə bağlı son hadisələr göstərir ki, istədiyimizə nail oluruq”

2



Səs
№ 192 (6392) 21 oktyabr 2021-ci il. Qiymətı 40 qəpik

*Prezident: "Vejnəli qızıl yatağının qanunsuz istismarında iştirak edən xarici şirkətlərin məhkəməyə verilməsi prosesinə start verilib"*

# Hədəf Zəngəzur dəhlizidir: Açılmalıdır və açılacaqdır!

Bax 11



## “Ölkəmizdə gender bərabərliyinin təmin edilməsi daim dövlət siyasətinin prioritet istiqamətlərindən biri olub”

5



”Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir.

9



## Ölkəmizdə koronavirusla mübarizə davam edir

*Dünya ölkələrində koronavirus - COVID-19 pandemiyası ilə mübarizə davam etməkdədir. İnkişaf etmiş bir dünyada yaşamağımıza baxmayaraq, hələ də pandemiyanın qarşısının alınmasına nail olunmayıb. Bu gün də pandemiyanın vurduğu zərbədən dünya əziyyət çəkir.*



## Şamil Ayrım: Can Azərbaycanın Müstəqilliyinin Bərpası Gününü fəxarətlə qeyd etməkdən çox məmnunuq

6

## “Milan”dan yeni antirekord...

*“Milan" yeni antirekorda imza atıb. Qol.az xəbər verir ki, bu, futbol üzrə UEFA Çempionlar Liqasının qrup mərhələsinin 3-cü turunda "Portu"ya uduzmaqla (0:1) qeydə alınıb.*



## İspaniyada sakinlərə pul paylanacaq?

İspaniyanın Santander şəhər rəhbərliyi sakinlərin eko-nəqliyyata keçməsini sürətləndirmək və bunu maliyyələşdirmək üçün qərar qəbul edib. Belə ki, hökumət elektrovelosiped ala bilmələri üçün sakinlərə 350 avro pul verəcək.

16

## Nill Vatson: “ATƏT MQ həmsədrlərinin erməni diasporuna görə Ermənistana çox sadiq olduqları ortaya çıxdı”

10





## İqbal Ağazadənin ciddi ittihamı: İsa Qəmbərin sovet nomenklaturası



*2003-cü ilin 15-16 oktyabr hadisələri ətrafında bu gün də və əsasən müxalifət daxilində aparılan qızğın müzakirələr qızğın mübahisələrə əvəzlənir və həmin mübahisələr kəskin ittihamlara, suçlamalara, hətta ...*

14



## Dağıdıcı müxalifətin növbəti xalq "yanğısı"

15



## Evdə COVID-19 xəstəsi varsa yoluxma riskini necə azaltmaq olar

16

# “Zəngəzur dəhlizinin açılması ilə bağlı son hadisələr göstərir ki, istədiyimizə nail oluruq”

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilanda səfərdə olublar



***Oktyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda səfərdə olublar.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım rayonun Ağalı kəndində həyata keçirilən ”Ağıllı kənd” layihəsi çərçivəsində görülən işlərlə, Zəngilan Beynəlxalq Hava Limanının tikintisi ilə, Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonunda yerləşən hərbi hissə kompleksində yaradılan şəraitlə tanış olublar, ”Azərişıq” ASC-nin Zəngilan Rəqəmsal Yarımstansiyasının təməlqoyma mərasimində və ”Azərenerji” ASC-nin 110/35/10 kV-luq ”Zəngilan” yarımstansiyasının açılışında iştirak ediblər.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər.

Prezident İlham Əliyev Zəngilan rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə qeyd edib ki, Oxçuçay təbii fəlakət zonasıdır. Orada götürülən analizlər göstərir ki, zəhərli maddələrin həcmi bəlkə də normanı 10 dəfə, 20 dəfə üstələyir. Dövlətimizin başçısı deyib ki, bu çayları da təmizləyəcəyik və burada dağ-mədən sənayesi inkişaf edəcək: ”Vejnəli qızıl yatağını ermənilər xarici şirkətlərlə birlikdə qanunsuz istismar edirdilər. O xarici şirkətlərin məhkəməyə verilməsi prosesinə start verdik.

> *Prezident: "Biz ordumuzu, iqtisadiyyatımızı gücləndirdik, beynəlxalq mövqelərimizi genişləndirdik və istədiyimizə nail olduq"*

Bu gün Moskvada Azərbaycan, Rusiya, Ermənistan baş nazirlərinin müavinləri növbəti dəfə görüşəcəklər və bizim mövqeyimiz bir daha orada səslənəcək. Beləliklə, Zəngilanda müasir logistika-nəqliyyat mərkəzi, yük təyyarələri, sərnişin təyyarələri, dəmir yolu qovşağı, avtomobil yolları, bütün bu infrastruktur qurulacaq.

> *Prezident: "Vejnəli qızıl yatağının qanunsuz istismarında iştirak edən xarici şirkətlərin məhkəməyə verilməsi prosesinə start verilib"*

Bilirsiniz ki, sovet vaxtında Zəngilanda hava limanı yox idi. Amma indi nəinki hava limanı, beynəlxalq hava limanı olacaq və Zəngilan ölkəmizin nəqliyyat logistika mərkəzinə çevriləcək. Ordumuzu gücləndirdik, iqtisadiyyatı gücləndirdik, beynəlxalq mövqelərimizi genişləndirdik və istədiyimizə nail olduq, tarixi ədalətə nail olduq. Bu gün sizinlə bərabər, mən dördüncü dəfədir ki, Zəngilana gəlirəm.”

Dövlətimizin başçısı deyib: ”Zəngəzur dəhlizi buradan keçir, dəmir yolu tikilir, avtomobil yolu - Horadiz-Ağbənd tikilir. Zəngəzur dəhlizinin açılması ilə bağlı son hadisələr onu göstərir ki, istədiyimizə nail oluruq. Bu, hamımızın qələbəsidir, Azərbaycan xalqının qələbəsidir. Çünki xalqımız bu işğal dövründə əyilmədi, vəziyyətlə barışmadı, öz doğma torpaqlarını unutmadı. Hətta bu torpaqları görməyən gənclər də bu torpaqların azad edilməsi eşqi ilə yaşamışlar və ölümə gedən də məhz onlar oldu. Birinci sırada gedən məhz o uşaqlar idi ki, işğaldan sonra dünyaya gəldilər və bəlkə də işğal dövründə onların 5-10 yaşı var idi. Yəni bu onu göstərir ki, xalqımız bu müqəddəs Zəfər Gününü gözləyirdi və bütün çətinliklərə baxmayaraq, bütün əzab-əziyyətlərə baxmayaraq bu günü gözləyirdi və inanırdı ki, bu gün gələcək”, -deyə dövlətimizin başçısı vurğulayıb.

## Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Füzulidən olan keçmiş məcburi köçkünlərlə görüşü ilə bağlı paylaşım edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Füzulidən olan keçmiş məcburi köçkünlərlə görüşü ilə bağlı paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: ”Füzuli rayonundan olan keçmiş məcburi köçkünlərlə görüş. Doğma torpaqlara qayıdışınızın həyəcanını və sevincini səmimi-qəlbdən sizinlə bölüşürəm!”.

# Azərbaycan xalqını təbrik edib Britaniya Parlamentinin üzvləri




***Azərbaycan Respublikasının müstəqilliyinin bərpasının 30-cu ildönümü münasibəti ilə Britaniya Parlamentinin Lordlar və İcmalar Palatasının üzvləri Azərbaycan xalqını təbrik ediblər.***

AZƏRTAC xəbər verir k, İcmalar Palatasının deputatı, Britaniya Parlamentində Azərbaycan üzrə Dostluq Qrupunun sədri Bob Bləkmən özünün şəxsi sosial şəbəkə profillərində etdiyi paylaşımlarda uzun illərdən bəri ölkəmizin dostu olduğunu vurğulayaraq, Azərbaycan xalqını təbrik edib.

Lordlar Palatasının üzvü Con Kilkluni də özünün şəxsi tviter hesabında etdiyi paylaşımda müstəqilliyin bərpası münasibəti ilə Azərbaycanı təbrik edərək, dövlətimizin başçısına, eləcə də bütün Azərbaycan xalqına ən xoş arzularını çatdırıb.

Lordlar Palatasının daha bir üzvü Lord Şeyx isə Azərbaycan Respublikasının Britaniyadakı səfiri Elin Süleymanova ildönümü ilə bağlı yazdığı məktubun mətnini özünün tviter hesabında paylaşaraq Azərbaycan xalqını təbrik edib. O, Azərbaycanın müstəqil bir ölkə kimi keçdiyi inkişaf yolunun təqdirəlayiq olduğunu əlavə edib.



# Prezidentin Füzuli səfəri və verdiyi MESAJLAR




***Ölkə başçısı, cənab Prezident İlham Əliyevin işğaldan azad olunan ərazilərimizə mütəmadi səfərlər etməsi, bu səfərlər çərçivəsində bir sıra obyektlərin təməlini qoyması, açılışlarını etməsi, həmin ərazilərdə ictimaiyyət nümayəndələri ilə görüşməsi və nitqi heç də təsadüfi deyil, çox böyük məna kəsb edir və olduqca əhəmiyyətlidir. Cənab Prezidentin işğaldan azad edilmiş ərazilərə səfərləri və həmin ərazilərdə abadlıq işlərinə rəhbərlik və nəzarət etməsi əvvəla "Böyük Qayıdış" barədə böyük bir mesajdır ki, Azərbaycan xalqının bu torpaqlara qayıdışı ən tez zamanda reallaşdırılacaq.***

## Təhlil

Digər tərəfdən də, bu səfərlər çərçivəsində ölkə başçısının nitqi zamanı ifadə olunan fikirlər təkcə regional deyil, qlobal səviyyədə mesaj olaraq dəyərləndirilir və hər dəfə məhz Azərbaycan xalqının milli maraqları ifadə olunur, ədalətin təntənəsi bir daha vurğulanır.

Bilirik ki, bölgədə maraqlı olan qüvvələr çoxdur. Ermənistanın qanunsuz olaraq torpaq ələ keçirmək, zəbt etmək arzusundan, iştahasından istifadə edərək Qafqazda hadisələrə nəzarət etmək, yeri gələndə müdaxilə etmək istəyənlər az deyil. Doğrudur, Ermənistan dövləti daim istifadə olunub, olunur və bu ölkənin marionet olaraq istifadə edildiyi bəlkə də ermənilər üçün qənaətbəxş, ya da adi hal hesab edilə bilər, amma hər bir halda Azərbaycan xalqı öz torpaqlarında erməni işğalçılarının törətdiklərinə, yaxud törətmək istədiklərinə biganə qalmaz, buna imkan verməz. Elə erməni separatçıları tərəfindən 30 il müddətində işğal altında saxlanılan torpaqlarımızın nəhayət ki, işğaldan azad edilməsi, 44 gün davam edən müharibədə zamanı işğalçıların torpaqlarımızdan qovulub çıxarılması sadalananların əyani sübutu, isbatıdır. Bütün bunların fonunda görünən odur ki, proseslərdən kənarda qalan, lakin bölgədə mövcudluğunu, ən azından müdaxilə etmək imkanlarını qoruyub saxlamaq istəyənlər heç zaman, ələlxüsus işğal dövründə, müharibə zamanı olmadığı kimi sanki aktivləşiblər, amma Azərbaycan xalqı, Azərbaycan dövləti artıq bundan sonra hansısa qüvvələrin müdaxiləsinə izn verməyəcəyini durmadan, çəkinmədən bəyan edir. Məhz ölkə başçısı dəfələrlə bu barədə bildirib və cənab Prezidentin verdiyi mesajlar özünün hədəf auditoriyasına çatır və onlar da dərk edirlər ki, Azərbaycanın mövqeyi ədalətli olmaqla yanaşı, həm də qətidir və kimlərinsə çirkin oyunlarına bundan sonra heç bir şəkildə imkan verilməyəcək.

”Düz bir il bundan əvvəl şanlı Azərbaycan Ordusunun Füzuli şəhərini və bir neçə kəndi işğalçılardan azad etməsi, Azərbaycan bayrağını qaldırması və beləliklə, uzun fasilədən sonra Azərbaycan dövlətinin bu ərazilərdə öz suverenliyini təmin etməsi, tarixi hadisədir və biz tarixi ədaləti bərpa etdik”, deyən cənab Prezident bütün dünyaya bəyan edir ki, əvvəla biz haqq yolundayıq və bu yolda tarixi ədalətin tərəfimizdən bərpa edilməsi həqiqətən də tarixi hadisədir. Ölkə başçısı bununla xatırladır ki, hansısa qüvvələr meydana atılıb hadisələrin məntiqi nəticəsini dəyişmək iqtidarında deyil və haqq yolunda olan Azərbaycan məhz tarixi ədaləti bərpa edib, ədalətin bu təntənəsi də artıq tarixə yazılıb, bunu da dəyişmək mümkün deyil.

”Biz Ermənistan ordusunu darmadağın etdik, erməni mifologiyasına son qoyduq, bütün dünyaya sübut etdik ki, ”yenilməz Ermənistan ordusu” nəyə qadirdir və bütün dünyaya xalqımızın böyüklüyünü nümayiş etdirdik”, deməklə, ölkə rəhbəri ermənilərin bu zamana qədər bütün dünyaya özləri barədə yüksək fikir formalaşdırmaq arzularını puça çıxardı. Bu zamana qədər ermənilərin özləri barədə uydurduqlarının, mifologiyalarının yalan olduğunu cənab Prezident hər dəfə çıxışında məharətlə sübuta yetirdiyi kimi, bu dəfə də arqumentlərlə sübut etdi və dırnaqarası ”yenilməz Ermənistan ordusu”nun əsgərlərinin fərariliyini, qorxaqlığını ortaya qoydu. Azərbaycan Ordusunun qarşısında bu dırnaqarası ”yenilməz”lərin 44 gün tab gətirə bilmədiyini də ölkə başçısı tam yerində xatırlatdı ki, bu faktlar həqiqətən də təkzibedilməzdir.

Bu gün Azərbaycan həqiqətlərinə kölgə salmaq, bunu örtbasdır etmək istəyənlər də ölkə baçısının nitqindən öz paylarını götürdülər. Ərazilərimizin işğaldan azad edilməsində ermənilərin maraqlarına xidmət edən yalan informasiyaları, uydurmaları tirajlamaq, yaymaq istəyənlər üçün isə Füzulidəki erməni vəhşiliyinin təzahürlərini sadalamaq kifayət edir. Ölkə başçısı qeyd edir ki, Füzulidə olarkən hər kəs erməni vəhşiliyinin təzahürlərini görür. Bu o deməkdir ki, reallığın nədən ibarət olduğunu dəqiqləşdirmək istəyən Füzulidə olsa yetərlidir. Bəli, həqiqətən də Füzulidə bircə dənə də salamat tikili olmaması ermənilərin vəhşiliyinin mahiyyətini sübut etmək üçün kifayət edir. Əbəs yerə ölkə başçısı vurğular ki, buraya gələn hər bir insan erməni vəhşiliyini, erməni vandallığını görür və bunu artıq heç kim inkar edə bilməz. Bu da, əslində, cənab Prezidentin mesajı idi ki, Füzulidə və digər işğaldan azad edilən ərazilərdə olan dağıntılar, faktlar qarşısında kimsə bu həqiqətləri inkar edə bilməz. Yəni, kimlərsə boş yerə buna cəhd belə etməsinlər. Bu həm də o deməkdir ki, ATƏT-in Minsk Qrupunun timsalında həqiqətləri, Azərbaycan həqiqətlərini guya bu vaxta qədər görməyən beynəlxalq qurumlar reallıqları, həqiqətləri artıq görməlidir və bundan sonra görməməzliyə vura bilməzlər.

Cənab Prezidentin, ”Füzuli şəhərini və Füzuli rayonunun kəndlərini bərpa edəcəyik, azad edilmiş bütün torpaqlarda həyat bərpa olunacaq, vətəndaşlar öz doğma ocaqlarına qayıdacaqlar”, ifadəsi isə böyük bir mesajdır. Bu, ermənilərin istər revanşist qüvvələrinə, istərsə də həmin torpaqlara qayıtmaq ümidində olan hansısa qüvvələrə tutarlı cavabdır. Ölkə başçısı qətiyyətlə bildirir ki, işğaldan azad olunan torpaqlara biz qayıdacağıq, Azərbaycan vətəndaşları qayıdacaqlar və ermənilər torpaqlarımızdan gözlərini birdəfəlik çəkməlidirlər.

Ölkə rəhbəri vurğulayır ki, Füzuli rayonunda artıq icra edilən layihələr bizim həm niyyətimizi, həm potensialımızı göstərir. Doğrudan da cəmi 8 ay ərzində Füzuli Beynəlxalq Hava Limanı inşa edilməsi çox böyük bir nailiyyətdir. Dövlət başçısının qeyd etdiyi kimi, bəlkə də dünya praktikasında, dünya tarixində bu qısa müddət ərzində, minalanmış ərazidə beynəlxalq hava limanları tikilməyibdir. Bu nailiyyət özü də Azərbaycanın qüdrətindən xəbər vermirmi? Belə sürətli işin, nailiyyətlərin, ölkənin qüdrətnin göstərilməsi özü də səfalət içərisində, borc içində olan Ermənistan üçün bir mesajdır. Bəli, uzun illər boyu daşı daş üstünə qoya bilməyən Ermənistana və onun havadarlarına mesaj verilir ki, Azərbaycan Füzuli Beynəlxalq Hava Limanını cəmi 8 ay ərzində tikib, sonra da təhvil verməsi ölkəmizin işğalçı ölkə ilə müqaisəyə gəlməyəcək dərəcədə güclü olmasını təsdiqləyir.

28 may və 18 oktyabr tarixləri barədə qeyd edən cənab Prezident, ”Biz haqlı olaraq fəxr edirik ki, müsəlman aləmində birinci demokratik respublika məhz Azərbaycan xalqı tərəfindən yaradılmışdır”, deyib və bununla təkcə Erməistana deyil, bütün dünyaya bəyan edib ki, müstəqil dövlətçilik ənənəsi, suverenlik bölgədə ilk olaraq məhz Azərbaycana məxsusdur. Bu, həm də o deməkdir ki, Ermənistan beynəlxalq ictimaiyyət qarşısında yalandan bar-bar bağırmasın ki, bu ərazilərdə onlara məxsus nə isə olub. Əslində bu həm də erməni yalanlarını ortaya çıxaran tarixi həqiqətlər, faktlardır ki, cənab Prezidentimiz bunu səsləndirib. Bu, eləcə də o deməkdir ki, əbəs yerə Ermənistan tərəfi, oradakı revanşistlər, yaxud nəyə isə ümid etməyə çalışanlar xam xəyallara düşməsinlər.

Cənab Prezident bildirib ki, biz tarixə ədalətli yanaşmalıyıq və biz ermənilərdən fərqli olaraq heç bir mifologiya yaratmamalıyıq, tarixi olduğu kimi bilməliyik və qiymət verməliyik. Əslində, Ali Baş Komandanın bu ifadələri çox böyük, qlobal miqyasda verilən mesajdır. Həmin mesaj ondan xəbər verir ki, Ermənistan tərəfinin uydurmalarından fərqli olaraq biz tarixi həqiqətlərə əsaslanırıq. İndi bütün dünya bu mesajlardan nəticələr çıxarmaqdadır və həqiqətən də Ermənistan tərəfinin gülünc mifologiya yaratmasının fonunda Azərbaycanın bunun əksinə tam reallıqları, həqiqətləri əsas hesab etdiyinin də fərqindədir. Bunlar çox incə məqamlardır və əslində, hər iki dövlətin müqayisəsinin dünyaya çatdırılmasıdır ki, bunu hər dəfə ölkə başçısı məharətlə edir.

Ölkə rəhbəri onu da diqqətə çatdırır ki, müharibə artıq bitib, Qarabağ məsələsi keçmişdə qalıb. Əslində, Prezidentimiz ara-sıra status məsələsini gündəmə gətirmək istəyənlərə bununla daha sərt mesajlar verib. Bu mesajlardan güman ki, çoxları nəticə çıxaracaqlar və onlar artıq bu mövzuya qayıtmağın mənasız olduğunu dərk etməkdədirlər. Çünki, heç bir ölkə ona aid olmayan torpaqlarda quruculuq, abadlıq işləri görməz, yeni layiələri gerçəkləşdirməzdi, necə ki, Ermənistan bunu etməmişdi. Azərbaycan isə bunu tərəddüd etmədən edirsə, deməli, hansısa statusdan danışmağa belə izn verilməyəcək və bu özü də tutarlı mesajdır.

Ali Baş Komandanın dediyi kimi, bu gün biz gələcəyi yaradırıq və bu gələcəyi öz əllərimizlə yaradırıq. Özü də əminik ki, bu günə qədər bəyan edilən bütün hədəflər necə təmin edilmişdisə, bundan sonra da bütün planlarımız, yəni növbəti dövr üçün nəzərdə tutulmuş hədəflər də təmin ediləcək. Bəli, bundan sonra da hədəflərimizə çatacaq, daha da güclənəcək, ordumuzu daha da gücləndirəcəyik. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının təhlükəsiz həyatı daim təmin ediləcək. Məhz ölkə rəhbərinin ən böyük mesajı da elə budur ki, biz daim inkişafdayıq, qüdrətimiz artmaqdadır, təhlükəsizliyimiz də daimi olaraq təmin ediləcək və suverenliyimiz də əbədidir, buna kimsə mane ola bilməz.

***İnam Hacıyev***



BMT-nin Ətraf Mühit Proqramının xoşməramlı səfiri: "Yerdəki həyatın yarısı artıq məhv olub"

Xəbər verdiyimiz kimi, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və BMT-nin Ətraf Mühit Proqramının xoşməramlı səfiri, əfsanəvi xokkeyçi Vyaçeslav Fetisov bu yaxınlarda ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında niyyət sazişi imzalayıblar. Görüş Moskvada baş tutub. Bu hadisəni Moskva-Bakı portalına şərh edən Vyaçeslav Fetisov tərəflərin görüşü zamanı daha nələri müzakirə etdiklərini söylədi. Müsahibəni oxucularımıza təqdim edirik.

- İmzalanmış müqavilə çərçivəsində Rusiya ilə Azərbaycanın hansı birgə işi nəzərdə tutulur?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Vyaçeslav Fetisov: "Leyla Əliyeva BMT-nin iqlim konfransında qlobal ekoloji problemləri qaldıracaq"





- Ötən gün Heydər Əliyev Fondunun vitse -prezidenti, IDEA ictimai birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva ilə görüşüm oldu. Vacib bir müqavilə imzaladıq və Yer planetinin gələcəyi ilə bağlı əhəmiyyətli məqamları müzakirə etdik. Bunlar böyük sözlər deyil, vəziyyətin həqiqətən diqqətə ehtiyacı var. İndi dünya siyasətində baş verən hər şey, birdən çox nəslin topladığını ortadan qaldırmaq üçün birgə hərəkətlər etmək səylərinə qoşulmağa yönəlir. Məsələn, planetin biomüxtəlifliyini götürək- Yerdəki həyatın yarısı artıq məhv olub.

Azərbaycanla ümumi təbii sərvətlərimiz və ortaq dənizimiz var. Və burada ilk növbədə gənclərlə uşaqların maariflənməsi üçün tərbiyə işləri və birgə hərəkətlərlə məşğul olacağıq. Onları ətraf aləmə ekoloji münasibət sahəsində öyrədəcəyik. Leyla Əliyeva, bütün bu böyük qərarların verilməsindən xeyli əvvəl, Azərbaycanda ətraf mühitin yaxşılaşdırılması, ətraf mühit problemlərinin əhəmiyyətini insanlara çatdırmaq üçün çox iş görən bir fond yaratdı.

Ümumrusiya Təbiəti Mühafizə Cəmiyyəti tərəfindən müqaviləni imzaladım. Bir vaxtlar bu təşkilat 1924-cü ildə qurulan ümumittifaq əhəmiyyətli idi. Düşünürəm ki, Azərbaycanın bir çox Sovet sakinləri bu cəmiyyətdə fəal iştirak etmişlər. Buna görə də, Azərbaycanın çoxdan yaradılmış təşkilatla birgə iş haqqında qarşılıqlı müqavilə imzalaması olduqca simvolikdir. Təşkilatımız bütün dünya məkanlarında bu gün əsas mövzu olan mövzulara yönəlib. Ümid edirəm ki, Rusiya ilə Azərbaycanın birgə hərəkətləri olacaq və biz bir-birimizi dəstəkləyəcəyik.

Tezliklə Qlazqoda ölkələrin 1-ci şəxslərinin iştirakı ilə BMT-nin iqlim konfransı keçiriləcək. Dəyirmi masada yol xəritəsi, yəni dünyanın karbon neytrallığı baxımından hara gedəcəyi müzakirə olunacaq. Planlar 2050-ci ilə nəzərdə tutulur. Bu dəyirmi masada Leyla Əliyeva çıxış edəcək və gündəmimizi təbliğ edəcəyik. Ekologiya və təbiətin qorunması ilə bağlı hər şeyi müzakirə edəcəyik. Ümid edirəm ki, bu, heç bir siyasi fərq nəzərə alınmadan hamı üçün başa düşülən oyun qaydalarının qəbul ediləcəyi taleyüklü bir hadisə olacaq.



- Ətraf mühitin mühafizəsi sahəsində Azərbaycanı keçmiş Sovet İttifaqının aparıcı ölkələrindən biri adlandıra bilərsinizmi?



- Tam bir qiymətləndirmə vermək üçün hər şeyə dalmaq və öyrənmək lazımdır. Amma deyə bilərəm ki, Azərbaycanda bu istiqamətdə görülən işlərin yaxşı nəticələri var. Məsələn, 2019-cu ildə Leyla Əliyeva ilə mən Xəzər dənizinə körpə nərə balıqları buraxdıq. Və bu təşkilat Azərbaycanda bir səbəblə yaradıldı. Xüsusi fəaliyyətlərin konkret planlaşdırılması bu istiqamətdə gedir. Bu gün Azərbaycanda ekoloji turizmin inkişafı çox vacibdir. Ekologiya hamımız üçün ən vacib sahədir. Ümid edirəm ki, birgə səylərlə bir çox ekoloji problemləri həll edə biləcəyik. Məsələn, Xəzərin ekologiyası təkcə Xəzəryanı ölkələrin deyil, bütün planetin problemidir. Burada çox şey cəmləşib və hər kəs bu mövzu ilə birlikdə məşğul olmalıdır. 2019-cu ildə Azərbaycana səfərimdən sonra təəssüf ki, hələ Bakıya getməmişəm. Ümid edirəm ki, yaxın gələcəkdə bu səfərimi edə biləcəyəm.





***Tərcümə - Elçin Bayramlı***

# “Ölkəmizdə gender bərabərliyinin təmin edilməsi daim dövlət siyasətinin prioritet istiqamətlərindən biri olub”

***Oktyabrın 20-də Yeni Azərbaycan Partiyasının və Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin birgə təşkilatçılığı ilə YAP Mərkəzi Aparatında "Gender bərabərliyinin və qadın hüquqlarının təşviqində vətəndaş cəmiyyətinin rolu" mövzusunda konfrans keçirilib.***



*YAP Mərkəzi Aparatında "Gender bərabərliyinin və qadın hüquqlarının təşviqində vətəndaş cəmiyyətinin rolu" mövzusunda konfrans keçirilib*

Konfransda giriş sözü ilə çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, ölkəmizdə insan hüquq və azadlıqlarının tərkib hissəsi kimi gender bərabərliyinin təmin edilməsi daim Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olub. Gender siyasətinin müasir dövrün tələblərinə uyğun həyata keçirilməsinin hüquqi əsasını məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa rəhbərliyi ilə 1995-ci il noyabrın 12-də qəbul olunmuş müstəqil Azərbaycanın Konstitusiyası təşkil edir. Onun sözlərinə görə, 15 il əvvəl qəbul olunmuş ”Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Qanun da respublikamızda qadınların hüquqlarının etibarlı müdafiəsi baxımından mühüm əhəmiyyətə malikdir. Qanunda gender balansının qorunması ilə bağlı hüquqi tənzimləmə mexanizmi öz əksini tapıb.





Tahir Budaqov qeyd edib ki, gender bərabərliyi olan cəmiyyət - qadın və kişinin bərabər üzv olduğu cəmiyyətdir: ”Belə cəmiyyətdə kişi və qadınların hüquqları bərabər səviyyədə müdafiə olunur. Gender bərabərliyinin təşviqi daimi məsələdir və onun davamlı aparılması vacibdir. Bu sahədə vətəndaş cəmiyyəti subyektləri də əhəmiyyət kəsb edən məsələləri əhatə etmək istiqamətində aktiv fəaliyyət göstərir”.

Azərbaycanda dövlət qadın siyasətinin ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirildiyini deyən YAP Sədrinin müavini diqqətə çatdırıb ki, bu xətt bu gün də davam etməkdədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi siyasətdə gender bərabərliyi məsələləri xüsusi yer tutur. Deməl olar ki, Azərbaycanda gender məsələləri bütün səviyyələrdə gözlənilir. Qadınların ictimai həyatda özlərini təsdiq etməsi üçün mükəmməl qanunvericilik bazası yaradılıb. Təsadüfi deyildir ki, qadınlarımız Milli Məclisdə, beynəlxalq təşkilatlarda, dövlət idarəçiliyində təmsil olunurlar.

”Ölkə başçısının rəhbərliyi ilə Azərbaycanda qadın siyasəti yüksəliş mərhələsinə qədəm qoyub, ölkəmiz bu sahədə də dünyanın öncül, nümunəvi dövlətləri sırasında qərarlaşıb. Ötən illər ərzində qadınlarla bağlı hüquqi baza daha da təkmilləşdirilib. Azərbaycanda birinci vitse-prezidentlik institutunun yaradılması, dövlət idarəçiliyində gender bərabərliyinin tam təmin edilməsi ölkəmizin bu sahədə geniş təcrübəyə malik olduğunu göstərir”,-deyən Tahir Budaqov vurğulayıb ki, demokratik inkişaf, hüquqi dövlət quruculuğu yolunda sürətlə irəliləyərək sivil dəyərləri əxz edən Azərbaycan cəmiyyətinə birinci xanım ənənələrini də gətirib və bu ənənələrin müstəqil Azərbaycan dövlətində yenidən bərpası faktı Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın adı ilə bağlıdır: ”Bu baxımdan hesab edirəm ki, bütün Azərbaycan xanımları üçün bu gün bizim gözəl örnəyimiz var. Bütün vacib keyfiyyətləri özündə cəmləşdirən Mehriban xanım Əliyeva sözün əsl mənasında müasir Azərbaycan qadınının ən nümunəvi təmsilçisidir. Fəxrlə deyə bilərik ki, onun simasında dünya dövlətlərinə dərin bilik və intellekt sahibi olan gözəl ziyalı, peşəkar siyasətçi, humanist Azərbaycan qadını obrazı təqdim olunur.”

YAP Mərkəzi Aparatının rəhbəri bildirib ki, Yeni Azərbaycan Partiyası da Azərbaycan qadınına daim yüksək münasibət göstərir: ”Partiyamız yarandığı ilk gündən onun sıralarında qadınlarımız fəallıq göstərib. YAP-ın inkişafının bütün mərhələlərində xanımlarımız öndə olublar. Bütün çətin anlarda öz üzərinə düşən vəzifələri ləyaqətlə yerinə yetiriblər. Bu fəallıq, Azərbaycan qadınının malik olduğu tarixi ənənələrlə yanaşı, ölkəmizdə həyata keçirilən gender siyasətinin mahiyyətindən - qadınlara cəmiyyətin tamhüquqlu üzvü kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılmasından irəli gəlir”.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova çıxışında qeyd edib ki, Azərbaycan dövlətinin gender bərabərliyi sahəsində həyata keçirdiyi siyasət, yaradılan institutsional mexanizmlər, qanunvericilik bazası bir çox inkişaf etmiş dövlətləri qabaqlayır. Ümumiyyətlə, tarixdə bərabərliyin təmin olunması və qadınların hüquqlarının müdafiə mexanizminin yaradılmasında Azərbaycan bir çox aparıcı dövlətlərlə yanaşı dayanır. Onun sözlərinə görə, Azərbaycan Konstitusiyasının 25-ci maddəsində qadınlarla kişilər arasında bərabərlik prinsipi təsbit edilir və ayrı-seçkiliyin yol verilməzliyi bəyan edilir. Bərabərlik hüququnun pozulması Cinayət Məcəlləsində cinayət əməli kimi müəyyən olunub.

Komitə sədri diqqətə çatdırıb ki, gender bərabərliyi siyasətinin həyata keçirilməsini özündə ehtiva edən bir çox hüquqi- normativ aktlar, sənədlər, fəaliyyət planları, dövlət proqramları qəbul edilib: ”Bununla yanaşı, Azərbaycan qadın hüquqlarını və gender bərabərliyini dəstəkləyən bir sıra konvensiyalara qoşulub. Bu da öz növbəsində qanunvericilik bazasının təkmilləşdirilməsinə səbəb oldu. Eyni zamanda, bütün qəbul olunan və yeni hazırlanan qanun və normativ-hüquqi aktlar gender ekspertizasından keçirilir. Bu çox vacibdir, bununla gender bərabərliyinin təmin edilməsi istiqamətində bir çox boşluqlar müəyyən olunur. Azərbaycan ”2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”də əks olunan 17 məqsədi və 169 hədəfi özündə birləşdirən qlobal Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulub. Ümumiyyətlə, dünyada gender bərabərliyinin tam təmin edilməsi prosesini ləngidən bir sıra amillər eyni ilə Azərbaycanda da mövcuddur. Erkən yaşda evlilik, məişət zorakılığı, mənfi gender stereotipləri hələ də problem olaraq qalmaqdadır. Bu deməkdir ki, bizim qarşımızda vəzifə və öhdəliklər var. Müəyyən məsələlərlə bağlı gender bərabərliyi ilə bağlı qanuna dəyişiklər edilməlidir və bu barədə layihə hazırlanıb”.

H.Hüseynovanın fikrincə, gender bərabərliyinə nail olmaq asan məsələ deyil: ”Ölkədə fəaliyyət göstərən partiyaların, vətəndaş cəmiyyətinin məsul şəxsləri bu sahədə əməkdaşlığı daha artırmalı, maarifləndirmə işlərini gücləndirməlidir, mövcud qanunlar, hüquq və azadlıqlar insanlara çatdırılmalıdır.”

Ardı Səh. 6

# “Ölkəmizdə gender bərabərliyinin təmin edilməsi daim dövlət siyasətinin prioritet istiqamətlərindən biri olub”

Əvvəli-Səh-5

Tədbirdə çıxış edən YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, gender bərabərliyi haqqında qanun dövlətimizin bu yöndə siyasətinin əsas istiqamətlərini müəyyən edir. Eyni zamanda, qanun gender mədəniyyətinin təbliğini də nəzərdə tutur. O, qanuna təklif edilən dəyişikliklərin əhəmiyyətli olduğunu diqqətə çatdırıb.

Dövlət Komitəsinin sədri qeyd edib ki, gender bərabərliyi kişi və qadınlar üçün bərabər hüquq, vəzifə, imkanlar, o cümlədən cəmiyyətdə bərabər sosial vəziyyətin yaradılmasıdır. Eyni zamanda, gender bərabərliyi dedikdə bərabər təmsilçilik və iştirakçılıq nəzərdə tutulur. Bərabər imkanların isə insan hüquqları, onların bütün formalarının reallaşdırılması üçün yaradılması vacib olan şərait və təminatlardan ibarət olduğunu diqqətə çatdıran Komitə sədri hər bir dövlətin bu məsələ ilə əlaqədar müvafiq siyasət müəyyənləşdirdiyini vurğulayıb. O qeyd edib ki, bu bərabərliyə nail olmaq üçün ilk növbədə cinsi bərabərsizliyin və ayrı-seçkiliyin bütün növlərinin aradan qaldırılmasına nail olmaq lazımdır. Azərbaycan bununla bağlı beynəlxalq Konvensiyalara qoşulub və ondan irəli gələn öhdəliklərini öz qanunvericilik aktlarına daxil edib.













Gender bərabərliyinin təşviqinin önəminə toxunan B.Muradovanın fikrincə, Azərbaycanda formalaşmış yeni siyasi konfiqurasiya imkan verir ki, siyasi partiyalar, qeyri-hökumət təşkilatları və həmkarlar təşkilatları müstəvisində bərabər təmsilçiliyin, iştirakçılığın təmin olunmasına töhfə verə bilək. Komitə sədri bu məsələdə YAP-ın ölkəmizdə siyasi konfiqurasiyanın mərkəzi aktoru kimi rolunu xüsusi vurğulayıb.









Çıxış edən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirinin müavini Anar Kərimov bildirib ki, Azərbaycan qadınlarının cəmiyyətdəki rolu davamlı olaraq artır. Qadınların məşğulluqla təminatı ilə bağlı nazir müavini deyib ki, qadınlar ölkə əhalisinin 50 faizindən çoxunu təşkil edir və onların məşğulluğunun təmin olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

A.Kərimovun sözlərinə görə, qadınlar özünüməşğulluq proqramında da fəal iştirak edirlər. O, həmçinin Əmək və Əhalinin Sosial Nazirliyi tərəfindən bu istiqamətdə həyata keçirilən proqram və layihələr haqqında ətraflı məlumat verib.

Konfransda həmçinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədr müavini Sona Salmanova, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Sabunçu rayon İcra Hakimiyyəti başçısının müavini Rəna Fərəcova, BMT-nin Əhali Fondunun Azərbaycandakı nümayəndəliyinin baş müşaviri Fərid Babayev, ”Azərbaycanda Qadın Sahibkarları İnkişafı Assosiasiyası” İctimai Birliyinin İdarə Heyətinin sədri Səkinə Babayeva və Milli Məclisin deputatı Rəşad Mahmudov çıxış edərək ölkəmizdə gender bərabərliyinin hüquqi təminatları, qadınların sosial hüquqlarının qorunması, qadın sahibkarlığının inkişafı, vətəndaş cəmiyyətinin gender bərabərliyinin təmin olunmasında rolu və s. məsələlər haqqında fikirlərini bildiriblər. Sonda konfrans iştirakçılarının sualları cavablandırılıb.

## Şamil Ayrım: Can Azərbaycanın Müstəqilliyinin Bərpası Gününü fəxarətlə qeyd etməkdən çox məmnunuq



*Azərbaycanın Müstəqilliyinin Bərpası Gününü Qarabağ zəfərinin işığında qeyd etməkdən çox məmnunuq. Ötən otuz ildə ilk dəfədir ki, könül rahatlığı ilə, böyük fəxarətlə bu günü qeyd edirik.*

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Şamil Ayrım ifadə edib.

XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını və ötən yüzilliyin sonunda dövlət müstəqilliyimizin yenidən bərpa olunması məsələlərindən danışan, böyük Zəfəri yüksək dəyərləndirən, Azərbaycanın sevincinə ailəsi ilə birlikdə qatıldığını diqqətə çatdıran Türkiyə Böyük Millət Məclisinin üzvü Şamil Ayrım deyib: ”Məqsədimiz bu coğrafiyada sülhü, sabitliyi, inkişafı, qardaşlığı qorumaqdır”.

## Ceyhun Bayramov ilə ABŞ Dövlət katibinin köməkçisi arasında telefon danışığı olub

Oktyabrın 20-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Amerika Birləşmiş Ştatları Dövlət Katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid arasında telefon danışığı olub.



Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Karen Donfrid Azərbaycanın müstəqilliyinin bərpa edilməsinin 30-cu ildönümü münasibətilə təbriklərini nazir Ceyhun Bayramovun diqqətinə çatdırıb. Tərəflər, iki ölkə arasında əməkdaşlıq gündəliyi üzrə fikir mübadiləsi aparıb və bir sıra istiqamətlərdə əlaqələrin inkişaf etdirilməsinin vacibliyini vurğulayıblar.

Telefon danışığı zamanı, həmçinin regiondakı münaqişə sonrası vəziyyət müzakirə edilib.

Nazir Ceyhun Bayramov Ermənistan-Azərbaycan arasında münasibətlərin beynəlxalq hüquq prinsipləri əsasında normallaşdırılması ilə bağlı mövqeyimizi Dövlət Katibinin köməkçisinin diqqətinə çatdırıb. Öz növbəsində Karen Donfrid iki ölkə arasında münasibətlərinin normallaşdırılmasının vacib olduğunu və ABŞ-ın bu xüsusda dəstək verməyə hazır olduğunu qeyd edib. Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Hüquq müdafiəçiləri soydaşlarımızın müdafiəsinə qalxdılar










44 günlük müharibə zamanı İran Ermənistana silahların daşınması üçün öz ərazisini açmışdı




Bəlli olduğu kimi, Azərbaycanın tanınmış hüquq müdafiəçiləri BMT-nin İnsan Haqları Komitəsinə və Amnesty International təşkilatına İranda 12 nəfər cənubi azərbaycanlı soydaşlarımızın həbs olunmaları və onlara hökm oxunmaları barədə müraciət ediblər. Qeyd edək ki, cənubi azərbaycanlı fəallara qarşı məhkəmə işi ötən ilin 29 sentyabr tarixində başlanılmışdı. Məhz həmin tarixdə Qarabağda torpaqlarımızın erməni işğalından azad edilməsi uğrunda Vətən müharibəsi gedirdi.

Milli fəallar Azərbaycanın haqq işinə dəstək məqsədi ilə Ərdəbildə etiraz aksiyası keçirərmələri ilə yanaşı, İrandan Ermənistana silah göndərilməsinə qarşı da səslərini ucaltmışdılar. Bu cürət isə teokrat rejimi hiddətləndirdi və nəticədə onlara qarşı repressiv tədbirlərin görülməsinə başlanıldı. Cənubi azərbaycanlı soydaşlarımız cari ilin sentyabr ayının 20-də məhkəmə qarşısına çıxarıldılar və onlara hökm oxundu: Hüseyn Balaxani, Pərviz Siyabi, Mustafa Pərvin, Mürtəza Pərvin, Müctəba Pərvin, Həmid Heydəri, Məhəmməd Çolani, Sübhan Bəxşi, Mehdi Xuşmand, Bəhmən Xeyrcu və Sədcad Kolani 15 il həbs cəzası almaları ilə yanaşı, onlara ümumilikdə 888 şallaq cəzası da kəsildi. Daha bir fəal-Əskər Əkbərzadə isə cərimələnərək azadlığa buraxılıb.

SİA xəbər verir ki, bununla bağlı mətbuata açıqlamalar verən bir sıra hüquq müdafiəçiləri İran hakimiyyətində cənubi azərbaycanlı soydaşlarımıza qarşı yürüdülən ilk belə halın olmadığını deyiblər.

## Şahin Xiyavi: "Tehran 30 illik işğal zamanında Ermənistanı dəstəkləyirdi"

Norveçdə fəaliyyət göstərən və İranda yaşayan azərbaycanlıların hüquqlarını müdafiə edən təşkilatın rəhbəri Şahin Xiyavi bildirib ki, İran məhkəməsinin hökmü yalnız Azərbaycana deyil, həm də Azərbaycanı dəstəkləyən dövlətlərə qarşı da ismarıcdır. "Birincisi, əgər İran-Azərbaycan münasibətlərinə baxsaq, Azərbaycan Respublikasının müstəqiliyi İranda yaşayan azərbaycanlıların milli özünüdərk formalaşmasında mühüm rol oynayır.

İkinci problem ondan ibarətdir ki, Qarabağ münaqişəsi cənubi azərbaycanlılar üçün çox həssas və əhəmiyyətli məsələ idi. Rəsmi Tehran öz növbəsində cənubi azərbaycanlıların milli formalaşmalarından ehtiyat edirdi. Ona görə də rejim hər zaman istəyirdi ki, Azərbaycan Respublikası zəif olsun, azərbaycanlılar Arazın o tayından Azərbaycana tərəf baxmasınlar. Sanki demək istəyirdi ki, Azərbaycana baxın, hətta özünün 20 faiz torpaqlarını azad edə bilmir. Bu səbəbdən Tehran 30 illik işğal zamanında Ermənistanı dəstəkləyirdi. İran burada ikili oyun oynayırdı - sözdə Bakını dəstəkləyir, guya dini inanc tərəfindən qardaş olduğunu nümayiş etdirir, fakta görə isə İrəvana dəstək göstərirdi. Hətta 44 günlük müharibə vaxtı İran Azərbaycana sözdə dəstək göstərdi, bildirdi ki, dini cəhətdən qardaşdır, əməldə isə öz ərazisini Ermənistana silahın daşınması üçün açırdı. Rejimin riyakarlığı İran azərbaycanlılarında narazılıq yaratdı və onlar Təbrizdə, Ərdəbildə, Urmiyada mitinq və aksiyalara çıxdılar - hər yerdə mitinqlər keçirilirdi. Və əgər bu etirazlar olmasa idi, əgər azərbaycanlılar təşkilatlanmasaydılar, onda İran açıq şəkildə Ermənistana dəstək göstərərdi.

Etirazlar birmənalı olaraq dinc xarakterli idi və rejimə qarşı istiqamət almamışdı, rejimin Ermənistanla-təcavüzkar ölkə ilə əməkdaşlığına qarşı idi. Lakin hakimiyyət fəalları həbs etdi, həbsxanalarda işgəncələrə məruz qoydu. Həbslər, işgəncələr və ağır cəza - bu, Cənubi Azərbaycandan olan digər fəallara da isramıc idi, yəni görün sizi nə gözləyir. Bundan əlavə, Tehran bu vasitə ilə Bakıya messec göndərir", hüquq müdafiəçisi bildirib.

Onun sözlərinə görə, İran Azərbaycan ərazilərinin azad olunmasından təlaşlanıb, çünki güclü Azərbaycan Respublikası cənubi azərbaycanlıları özünə maqnit kimi çəkəcək.

"Həddindən artıq ağır cəza məhz buna tərəf istiqamət alıb ki, azərbaycanlılarda qorxu yaratsın. Təəssüf ki, burada appelyasiya kömək etməyəcək - yuxarı məhkəmə instansiyaları hökmü qüvvədə saxlayacaq. Belə ki, İran hakimləri müstəqil deyillər, onlar hakimiyyətin tapşırıqları əsasında hökmlər çıxarırlar. Hesab edirəm ki, rejim onların ailələrinə qarşı da basqılar göstərəcək. Baxmayaraq ki, hakimiyyət İranda insanların toplaşmaq hüququna malik olduqlarını bəyan edir, söhbət azərbaycanlılara gələndə həmin bəyanat yaddan çıxır.

Lakin İranda sayları 70 min olan ermənilər növbəti "genosid" ildönümlərini keçirmək üçün toplaşanda, aksiyalar keçirəndə onlar üçün hər şey icazəli olur", hüquq müdafiəçisi deyib.

## Şahin Cəfərli: "Beynəlxalq ictimaiyyətə İranda insan haqlarının pozulması faktlarını çatdırmalıyıq ki, bu məsələlər beynəlxalq gündəmə çıxarılsın, cənubi azərbaycanlıların hüquqları təmin edilsin"

Azərbaycanlı hüquq müdafiəçisi Şahin Cəfərli də bildirib ki, İran hakimiyyəti azərbaycanlıların öz hüquqları uğrunda mübarizə aparmalarından təlaş keçirir.

"Məlum olduğu kimi, 44 günlük müharibədə vaxtı cənubi azərbaycanlılar ölkə ərazisindən Ermənistana silahların daşınmasına qarşı etiraz aksiyaları keçirdilər və fəallar həbs olundular. Ümumilikdə götürəndə onlar ciddi cinayət əməlləri törətməyiblər və inzibati cəzalar da ala bilərdilər. Lakin iranlı hüquq-mühafizə orqanları daha ağır cəzalar verməyi qərara aldılar. Bunun isə əlbəttə ki, səbəbləri var. Əsas səbəb budur ki, İran rejimi ölkədə mərkəzçilik tendensiyalarının yaranmasından çox ehtiyat edir və yalnız azərbaycanlılar arasında deyil, digər etnik və dini qruplardan da ehtiyatlanır. Ona görə də hətta təhlükə yaratmayan aksiyalara qarşı kəskin cavablar verilir", hüquq müdafiəçisi bildirib.

Onun sözlərinə görə, azərbaycanlı hüquq müdafiəçilərinin Cənubi Azərbaycan fəallarının həbs olunmaları və onlara ağır hökmlərin kəsilməsi qərarına qarşı beynəlxalq təşkilatlara müraciət etmələri yalnız dəstəklənməlidir və bu siyasəti davam etdirmək vacibdir. "Biz beynəlxalq ictimaiyyətə İranda insan haqlarının pozulması faktlarını çatdırmalıyıq ki, bu məsələlər beynəlxalq gündəmə çıxarılsın, cənubi azərbaycanlıların hüquqları təmin edilsin", Şahin Cəfərli deyib.

## Novella Cəfəroğlu: "Susmaq olmaz, fəaliyyət göstərmək lazımdır, çünki həqiqət də bizim tərəfimizdədir"

Hüquq müdafiəçisi Novella Cəfəroğlu isə öz növbəsində bildirib ki, Tehran hər zaman İranda yaşayan milli azlıqlara, xüsusilə də azərbaycanlılara qarşı neqativ davranıb. "Tehranda Azərbaycan dilində tədris keçən məktəblər olmayıb, bununla yanaşı, azərbaycanlılara öz ana dillərində danışmağa icazə vermirdilər. Bütün bunlar ona görə edilirdi ki, xalq birləşə bilməsin, bu İran rəhbərliyini çox qorxudur. Biz-hüquq müdafiəçiləri artıq uzun illərdir ki, İran İslam Respubikasında insan haqlarının pozulması faktları ilə bağlı araşdırmalarımızı aparırıq, özü də yalnız azərbaycanlıların deyil. Bizim tərəfimizdən İrandan olan qadınlar üçün seminarlar təşkil olunub ki, onlar öz problemləri barədə danışıblar. Onlar mütəmadi şəkildə İran hakimiyyəti tərəfindən saxlanılırdılar lakin biz-hüquq müdafiəçiləri Azərbaycanda bu məsələləri bütün beynəlxalq təşkilatlarda, insan hüquqlarının müdafiəsi kontekstində qaldırırdıq".

Novella Cəfəroğlu bildirib ki, İran fanatikləri ən demokratik dini - İslamı manipulyasiya məqsədi ilə şəriət qanunları toplusuna çevirməyə çalışırlar. Bu, insan haqlarının kobud şəkildə pozulmasıdır və ona göz yummaq olmaz.

"Onlar Azərbaycana qarşı ona görə düşmənçiliklə yanaşırlar ki, biz dinc mövcudluq üçün çıxış edir, savadsız mollaların hakimiyyətini laxladırıq. İkinci Qarabağ müharibəsi zamanı İran Ermənistana kömək edirdi, ona öz silahlarını ötürürdü. Cənubi Azərbaycandan olan fəalların həbslərinə gəldikdə isə inanıram ki, əgər beynəlxalq hüquq-müdafiə təşkilatları bu məsələyə qarışsalar onların hamısı azad ediləcəklər. Susmaq olmaz, fəaliyyət göstərmək lazımdır, çünki həqiqət də bizim tərəfimizdədir", Novella Cəfəroğlu bildirib.

*Rövşən RƏSULOV*

ŞƏRH+AKTUAL

# İlham Əliyev: “Zəngilan rayonunu cənnətə çevirəcəyik”

*Zəngilanın işğaldan azad olunmasından bir il ötür. İkinci Vətən müharibəsinin 25-ci günündə 27 illik işğala son qoyuldu - Zəngilan şəhəri işğaldan azad oldu. Qürurumuz olan Azərbaycanın üçrəngli bayrağı Zəngilanda qaldırıldı.*



Bəli, bu gün 44 günlük müharibə zamanı işğaldan azad olunan torpaqlarımızın hamısında üçrəngli bayrağımız ucaldılır. Böyük mütəfəkkir Viktor Hüqo vaxtilə yazırdı: ”Əsl Liderin ömrünün yarısı Vətənə, digər yarısı da xalqa xidmət etməkdən ibarətdir”. Bu gün müstəqil Azərbaycanı güclü edən, onu sabitlik məkanına çevirən əsas amil də məhz xalqımızın ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilən Ulu Öndər Heydər Əliyev ideyalarına olan sonsuz sədaqətidir. Məhz elə buna görə Artıq Qubadlı, Kəlbəcər, Laçınla yanaşı, Zəngilanın da baş planı hazırlanır. Yenidənqurma işlərinin ən innovativ layihələr əsasında həyata keçirildiyi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən ”Ağıllı kənd” pilot layihəsi icra edilir. Layihə əsasən, 5 komponent - yaşayış, istehsal, sosial xidmətlər, ”ağıllı kənd təsərrüfatı”, alternativ enerji sahələri üzrə reallaşdırılır. Ərazidə ilk olaraq tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi evin tikintisi nəzərdə tutulub.

Eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə inşa edilən ikinci beynəlxalq hava limanı da Zəngilandadır. Laçın, Füzuli hava limanları kimi, Zəngilan hava limanının da inşa edilməsi bölgənin canlanmasına səbəb olacaq. Onu da vurğulayaq ki, bütün bu işlər yalnız Azərbaycan dövlətinin vəsaiti hesabına, başqa ölkələrdən heç bir kredit götürülmədən icra edilir. Prezident İlham Əliyev oktyabrın 17-də Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə qeyd edib ki, azad edilmiş ərazilərdə ən müasir texnologiyalar tətbiq edilir: ”Bu, artıq reallıqdır. Bunu mən müharibə başa çatandan dərhal sonra bəyan etmişdim və bunu bu gün hər kəs görə bilir. Zəngilanda birinci kəndin inşası başa çatmaq üzrədir. Ağdam şəhərinin baş planı təsdiqləndi, işlərə start verildi. Cəbrayılın baş planı təsdiqləndi. Artıq göstəriş verildi və vəsait ayrıldı, digər şəhərlərimizin - Zəngilan, Qubadlı, Kəlbəcər və Laçının baş planları hazırlanır. Bütün bu işləri biz görəcəyik. Bildiyiniz kimi, heç kimdən asılı olmayaraq, öz vəsaitimiz hesabına, heç kimə müraciət etmədən, heç bir kredit götürmədən biz bu işləri görəcəyik”.





rədir ki, 18 il əvvəl ”Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam” məramı ilə Prezident İlham Əliyevin həyatı xalqına və Vətəninə həsr olunmuş əsl lider ömrüdür. Prezident İlham Əliyev Ulu Öndərimizin ”Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır” fikirlərini reallığa çevirərək bir daha isbat etdi ki, O, məhz Vətəninin, xalqının rifahı üçün yaşayan LİDERDİR. Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyev cənablarının rəhbərliyi ilə rəşadətli Azərbaycan əsgəri döyüşlərdə qəhrəmancasına döyüşə-döyüşə bərkiyərək Güclü Ordumuzun gücü ilə Azərbaycan tarixinə qələbələr yazırdı. Ali Baş Komandanımız oktyabrın 20-də növbəti Qələbə müjdəsini xalqımıza çatdırdı - ”Zəngilan şəhəri və rayonun 6 kəndi, Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının 18 kəndi işğaldan azad edilib”.

Hər gün, hər an Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqımıza qələbə sorağını verdikcə, Liderimizlə, Güclü Ordumuzla, qəhrəman, igid əsgərlərimiz, həmçinin xalqımızla qürur duyuruq. Artıq Vətən Müharibəsinin 25-ci günündə 28 illik həsrətə son qoyuldu - Zəngilan işğaldan azad edildi. Bu sevinci Azərbaycan Prezidenti İlham Əliyev bəxş etdi. İlk gündən bu günə kimi hər gün sevincli günləri bizə yaşadan Liderimiz öz xalqı, qüdrətli Ordusu və rəşadətli əsgərləri ilə fəxr etdiyini, qürur duyduğunu deyir. Ancaq bütün bunlara Ali Baş Komandanımız, dövlətimizin başçısı İlham Əliyev cənablarının düşünülmüş uğurlu siyasəti - ”Dəmir yumruq” əməliyyatı ilə nail oluruq. Hər gün qələbə, qələbə ardınca. Hər gün Azərbaycan dövlətinin və xalqının tarixinə qələbə günləri yazılır. Növbəti qələbə günləri bir-birinin ardınca yazılan 17 oktyabr Azərbaycanın Füzuli şəhərinin, 20 oktyabr Zəngilanın işğaldan azad edildiyi gün. Dövlət başçımız xalqa müraciətində qeyd edib ki, Şanlı Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla davam etdirir: ”Əziz həmvətənlər, Müzəffər Azərbaycan Ordusu döyüş meydanında yeni qələbələr qazanır. Bu qələbələr hər bir Azərbaycan vətəndaşını sevindirir. Torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan düşmən döyüş meydanında Azərbaycan Ordusunun gücünü görür. Biz öz torpağımızda vuruşuruq, öz torpağımızı qoruyuruq və işğalçıları bundan sonra da öz torpaqlarımızdan qovacağıq. Xalqımız döyüş meydanından, cəbhə bölgəsindən səbirsizliklə yeni xəbərlər gözləyir. Mən çox şadam və mən xoşbəxt adamam ki, bu şad xəbərləri Azərbaycan xalqına çatdırıram”.

Oktyabrın 20-də Prezident İlham Əliyev Cənabları bu qələbə sorağını xalqa çatdıraraq bildirdi ki, ”Biz Böyük Qayıdışın astanasındayıq və Azərbaycan dövləti əlindən gələni edəcək ki, işğal edilmiş və azad edilmiş torpaqlara qayıdacaq Azərbaycan vətəndaşları rahat yaşasınlar, əmin-amanlıq şəraitində yaşasınlar. Bu torpaqlarda həyat canlanacaqdır”. Dövlət başçısı bildirdi ki, ”Mən onlara deyirdim ki, biz o torpaqlara qayıdacağıq. Mən deyirdim ki, mən bilirəm, nəyi nə vaxt və necə etmək lazımdır və xalq tərəfindən mənə verilən və göstərilən etimad imkan verdi ki, biz bu məsələni həll edək və bir daha mən bəyan edirəm ki, bütün verilmiş vədləri mən yerinə yetirirəm, bütün verilmiş vədlərə sadiqəm və mənim Prezident kimi fəaliyyətim üçün əsas məsələ mənim əsas vəzifəm Azərbaycan torpaqlarının qaytarılmasıdır, ərazi bütövlüyünün bərpa edilməsidir və bu gün biz bunu döyüş meydanında edirik”. Bəli, bu gün qazanılan qələbələr Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin milli maraqlarımıza söykənən müstəqil siyasətinin, beynəlxalq arenada yüksək nüfuzunun, Güclü Ordumuzun, rəşadətli əsgərlərimizin və xalqın birliyinin məntiqi nəticəsidir.

## Zəngilan rayonu tezliklə yenidən qurulacaq, bərpa ediləcək

30 illik həsrətə 44 gün ərzində ”Dəmir yumruq” əməliyyatı ilə son qoyan Azərbaycan bütün işğal olunmuş torpaqlarımızda olduğu kimi, Zəngilan rayonu tezliklə yenidən qurulacaq, bərpa ediləcək, təkcə zəngilanlılar deyil, bütün məcburi köçkünlər Böyük Qayıdışın astanasındadırlar. Zəngilan işğaldan azad edilmiş rayonlar arasında yenidənqurma işlərinə ən tez başlanılan ərazilərdəndir.

Göründüyü kimi, 44 günlük müharibədən sonra işğaldan azad olunmuş torpaqlarımızda görülən quruculuq-abadlıq işləri, məhz dövlət başçımızın düşünülmüş iqtisadi siyasətidir ki, bu gün Qarabağ və ətraf rayonlar quruculuq meydanına çevrilib.

”Zəngilan rayonunu cənnətə çevirəcəyik”. Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Zəngilana səfəri zamanı deyib. Erməni qəsbkarlarının tamamilə dağıtdığı rayonlar, o cümlədən Zəngilan bu gün yenidən qurulmaqla yanaşı, həm də ona qovuşmaq arzusunda olan sakinlərin tezliklə öz doğma yurdlarına qayıdacağına təminat verir. Sözün qısası, artıq işğaldan azad edilmiş Zəngilan şəhərində Azərbaycan bayrağı dalğalanır. Bütün bunlara Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Cənablarının, Müzəffər Ordumuzun, Rəşadətli əsgərlərimizin və xalqımızın Birliyi, Həmrəyliyinin nəticəsində əldə edilir. Bu qələbə Ali Baş Komandanımızın, bizim birliyimizin qələbəsidir, haqq işimizin, Müzəffər ordumuzun gücünün, rəşadətli əsgərlərimizin, Azərbaycan xalqının iradəsinin qələbəsidir!

Yaşasın Azərbaycan Ordusu! Yaşasın Azərbaycan xalqı! Qarabağ Azərbaycandır!

**RƏFİQƏ KAMALQIZI**

TƏHLİL

***"Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir".***

# Hədəf Zəngəzur dəhlizidir: Açılmalıdır və açılacaqdır!

Şərh




Bu sətirlər 10 noyabr 2020-ci ildə Azərbaycan və Rusiya prezidentlərinin, o cümlədən Ermənistanın baş nazirinin imzaladığı birgə bəyanatın 9-cu bəndindən götürülüb. Azərbaycan şər yuvasını yıxmaqla, düşmənin başını əzməklə, işğalçı ordunu ərazilərimizdən vurub çıxarmaqla yanaşı həm də bütün regionu terror təhdidindən qurtardı, dinc erməni xalqını onilliklər boyu qorxu, təzyiq altında saxlayan klan-oğru hakimiyyətindən qorudu. Ən əsası isə bölgədə hələ sovet dövründə mövcud olan, erməni separatçılarının, millətçi-daşnakların irtica siyasəti nəticəsində dağıdılan, uzun müddət istifadəsiz qalan və nəticədə qonşu ölkələrin də iqtisadi itkilərə məruz qaldığı kommunikasiya xəttlərinin yeni reallıqlara uyğun olaraq bərpası gündəmə gəldi.

Bu gün Azərbaycanın işğaldan azad edilmiş Şərqi Zəngəzur və Qarabağ ərazilərində tikinti bunu yaşanır. Ötən 1 il ərzində yeni infrastruktur layihələri həyata keçirilir. Horadiz-Ağbənd dəmir yolu xəttinin tikintisi tam sürətlə aparılır, Naxçıvan istiqamətindən isə Ordubad stansiyasının bu ilin may ayının 10-da Prezident İlham Əliyevin iştirakı ilə yenidənqurmadan sonra açılış mərasimi keçirildi. Təbii ki, məqsəd Şərqi Zəngəzurla Azərbaycanın digər ərazisi Naxçıvan arasındakı 40 kilometrlik dəhlizin açılmasıdır. Bu barədə Azərbaycan Prezidenti Ordubadda olarkən mediaya açıqlamasında da ətraflı danışmışdı: "Mən təsadüfən Ordubad dəmir yolu stansiyası ilə tanışlığa gəlməmişəm. Çünki bunun da çox böyük rəmzi mənası var. Bu yaxınlarda buradan təqribən 50-60 kilometr uzaqlıqda yerləşən Mincivan qəsəbəsinin ermənilər tərəfindən dağıdılmış dəmir yolu stansiyasında baxış keçirdim. Orada dəmir yolu mövcud deyil. Mənfur düşmən bütün dəmir yolu infrastrukturunu dağıdıbdır, talan edibdir. Orada bir mərkəz olacaq, burada bir mərkəz olacaq. Zəngilanı Naxçıvanla ayıran cəmi 40 kilometrlik Zəngəzur dəhlizidir, hansı ki, açılmalıdır və açılacaqdır".

Dövlət başçısı 10 noyabr tarixli birgə Bəyanatda bu barədə yazıldığını xatırladıb və Azərbaycan-Ermənistan-Rusiya Baş nazirlərinin müavinləri səviyyəsində işçi qrupunun keçirilmiş iclaslarında da artıq bu məsələ ilə bağlı çox ciddi addımlar atıldığını qeyd edib: "Əminliklə deyə bilərəm ki, dəmir yolu dəhlizi açılacaqdır. Heç kimdə bu haqda şübhə olmasın. Əlbəttə ki, Azərbaycan öz üzərinə düşən vəzifələri icra edəcək. Bildiyiniz kimi, mən Horadiz-Ağbənd dəmir yolunun təməl daşını qoydum. Burada çatışmayan 15-16 kilometrlik hissə inşa ediləcəkdir, Ordubaddan Ermənistan sərhədinə qədər. Naxçıvan dəmir yolu fəaliyyət göstərir, indi həm sərnişin, həm yük daşımaları həyata keçirilir. Yəni, Azərbaycan ərazisində Horadiz-Ağbənd dəmir yolu tikiləndən sonra bütün infrastruktur yaradılacaqdır".

Əsas məqam, Ermənistan ərazisində olan hissəyə gəldikdə isə Prezident bu məsələyə də aydınlıq gətirib: "Bildiyiniz kimi, Ermənistan dəmir yolları anlayışı yoxdur. Rusiya dəmir yolları bütün Ermənistanın dəmir yollarına sahibdir. Deməli, Ermənistan dəmir yolları ona məxsusdur. Ona görə biz bu məsələni daha çox Rusiya tərəfi ilə müzakirə edirik. Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı bizim qədim torpağımız olan Qərbi Zəngəzurla, ondan sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək bizim növbəti tarixi nailiyyətimiz olacaq. Əminəm ki, bu, olacaqdır, məndə heç bir şübhə yoxdur".

Bu yaxınlarda isə Ermənistanın Baş naziri Nikol Paşinyan Naxçıvanla Azərbaycanı birləşdirəcək yoldan - Zəngəzur dəhlizindən danışıb. MDB dövlət başçıları Şurasının iclasında çıxışı zamanı deyib ki, Rusiya, Azərbaycan və Ermənistan baş nazir müavinlərinin başçılığı ilə üçtərəfli işçi qrup çərçivəsində bütün nəqliyyat kommunikasiyalarının açılması üzərində işlər aparılır: "Yaxın gələcəkdə konkret nəticələrə nail olmağa ümid edirik. Bu o deməkdir ki, Ermənistan Azərbaycan ərazisi üzərindən Rusiya və İranla, Azərbaycan isə Ermənistanın ərazisi üzərindən Naxçıvan Muxtar Vilayəti ilə dəmiryol və avtomobil əlaqələrini əldə edərlər".

Paşinyan əlavə edib ki, Ermənistan "izolyasiya və düşmənçilik deyil, sülhün bərqərar olması simvolu və vasitələri ola bilən nəqliyyat kommunikasiyalarının açılması ssenarilərini" dəstəkləyir. Baş nazir ölkəsindəki bəzi qüvvələrin hələ də müharibə ritorikasında olduqlarından gileylənib və bildirib ki, daimi təhdid və təxribatlar şəraitində sülh gündəliyini irəli sürmək çox çətindir: "Çoxları nəinki inanmır, bölgəmizdə sülhün və sabitliyin bərqərar olmasını belə istəmir. Və belə bir şəraitdə sülh gündəliyini yeritmək çox çətindir. Lakin biz qətiyyətliyik və regionumuzda sülhə və sabitliyə nail olmaq üçün əlimizdən gələni edəcəyik".

Beləliklə, II Qarabağ müharibəsinin qalibi Azərbaycan da, məğlub Ermənistanın indiki rəhbərliyi də bölgədə sülhün, dialoqun, sivil qonşuluq siyasətinin davam etməsində, iqtisadi inkişafın şah damarı olan kommunikasiya və tranzit xətlərinin bərpa olunmasında maraqlı görünürlər. Baxmayaraq ki, Azərbaycan həm sözdə, həm əməldə buna sadiqdir, konkret fəaliyyətlə məşğuldur, Ermənistan rəhbərliyi isə hələlik sözdə bu ideyanı dəstəkləyir. Müharibə, görünür, Ermənistanı o qədər yorub ki, iqtisadi layihələrə start verməyə, kommunikasiya xətlərinin açılmasına dəstək olmağa tələsmir. Həm də ölkədaxili mənzərə Paşinyan hakimiyyətinin proqnoz və istəkləri ilə uzlaşmır, daha doğrusu hakimiyyət bunu reallaşdıra bilmir. Ona görə də ümidini xarici investisiyalara bağlayan Paşinyan zamanla döyüşə girib. Avropa İttifaqının 4 milyardlıq vədi hələlik reallaşmayıb, vaxt isə gözləmir. Oktyabrın 18-19-da İrəvanda keçirilmiş Rusiya-Ermənistan regionlararası forumda da məğlub ölkənin iqtisadiyyatını dirçəltmək məqsədilə 1 milyard dollarlıq investisiyanın qoyulacağı da hələlik söz olaraq qalır. Paşinyan isə tələsir. Növbəti seçkilərə qədər o həm bəyanatın şərtlərini yerinə yetirməli, eyni zamanda müharibənin yaralarını sarımalı, həm də ölkə əhalisinin qarnını doyurmalıdır. Bu işləri görmək üçün isə milyardlarla vəsait lazımdır, o isə Ermənistanda yoxdur.

Son günlər Azərbaycan və Ermənistanda nəqliyyat və iqtisadi kommunikasiyaların açılmasından tez-tez danışılır. Tərəflər fərqli yanaşmalar sərgiləsələr də yekunda söhbətin Zəngəzur dəhlizindən getdiyi məlum olur. Əslində, Zəngəzur dəhlizi açılarsa, bu yoldan Azərbaycanla yanaşı həm Rusiya, həm Ermənistan, həm də bu məsələdə maraqlı görünən, özünü Cənubi Qafqazda yeni aktor kimi təqdim etməyə çalışan İran da faydalanacaq. Ermənistan yolun açılmasına razıdır, amma Azərbaycanın dəhliz üzərində nəzarətini gücləndirə biləcəyindən narahatdır.

Yenə qayıdaq MDB-nin sonuncu sammitinə, Paşinyanın bu çıxışı ilə "gözə kül üfürdüyünü" asanca görmək olar. Dediklərinə özü də inanmır, amma etmək zorundadır, öhdəliyi var, masada üçtərəfli bəyanatın 9-cu maddəsi var. Bunu o etməsə də Ermənistan dəmiryolu xətlərinin sahibi Rusiya edəcək.

Biz regional aktora çevrilmək üçün canfəşanlıq edən İranın mövqeyindən təsadüfən danışmadıq. Amma cənub qonşumuz Türkiyənin timsalında yeni regional gücün Azərbaycanın mövqeləri ilə razılaşması və bizə dəstək verməsindən bərk narahatdır. İqtisadiyyatı tənəzzülə uğramış, blokada şəraisində, iqtisadi təcrid vəziyyətində yaşayan Ermənistana nəfəslik verən rəsmi Tehran elə təsəvvür edirdi ki, müharibə Azərbaycanı da ona möhtac qoyacaq. Və İran hər iki ölkəni asanca idarə edə biləcək. Amma yanıldı, Azərbaycan qısa müddət ərzində qələbə qazandı, 30 il torpaqlarımızı işğal altında saxlayan Ermənistan isə ağır məğlubiyyətə uğradı. Beləliklə, İranın Azərbaycana təsiretmə rıçaqı - Ermənistan adlı maşası sındı. Yəqin ki, rəsmi Tehranın Azərbaycana qarşı son günlər sərgilədiyi münasibətin səbəblərindən bir qismini anladınız

**V.VƏLİYEV**

# Nill Vatson: "ATƏT MQ həmsədrlərinin erməni diasporuna görə Ermənistana çox sadiq olduqları ortaya çıxdı"



***Ermənistan-Azərbaycan münaqişəsi üzrə ixtisaslaşmış ingilis jurnalisti Nill Vatson "Caliber" analitik mərkəzinə müsahibəsində ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin hansı səbəblərdən Ermənistanı müdafiə etdiklərini izah edib. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə dair ATƏT-in Minsk qrupu danışıqlarının uğursuzluğunun əsas səbəbi nədir?***

- Məncə, ATƏT-in Minsk Qrupunun sülh yolu ilə həllində tamamilə təsirsiz olduğu ortaya çıxmasının əsas səbəbi 3 həmsədr ölkənin Fransa, ABŞ və Rusiya olması idi. Bu ölkələr bir növ erməni diasporunun yüksək dərəcədə inteqrasiya əldə edərək dünyanın siyasətinə, işinə, incəsənətinə və musiqisinə rəvan şəkildə qovuşduğu beşiyidir. Bu üç ölkənin Ermənistan tərəfinə çox sadiq olduqları ortaya çıxdı.

Nəticədə, uzun müddətdir müşahidə etdiyimiz şey baş verdi- ATƏT-in Minsk qrupu Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllində tamamilə təsirsiz olduğunu sübut etdi, halbuki 1993 -cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamədə qara və ağın kim olduğu, nəyin və necə həyata keçirilməli olduğu, təcavüzkar ölkənin Ermənistan olduğu yazıldığı halda, bu, kağız üzərində qalmışdır.

***- Ermənistan Azərbaycanla sülh müqaviləsinin imzalanmasını gecikdirir. Sizcə bunun əsl səbəbləri nələrdir?***

- Ermənistanda demoqrafik böhran olmasına baxmayaraq, İrəvan öz diasporunun dəstəyini qazandığından, mübarizliyi nümayiş etdirməkdə davam edir.

Bundan əlavə, erməni təbliğatının gücü Ermənistanın özünü İslam bölgəsinin ortasında xristianlığın qalası olaraq yerləşdirməsindədir (baxmayaraq ki, Azərbaycan multikulturalizmin yüksək inkişaf etdiyi bir ölkədir), bununla da Qərbin dəstəyi ilə dünyaya 1915-ci il "soyqırımı" haqqında miflər yayırlar.

Ermənistanın müttəfiqləri həm də onu silahla təmin edən və ərazisində hərbi bazaları olan, infrastrukturuna və enerjisinə nəzarət edən Rusiya, həmçinin, ərazisində təxminən 30 milyon etnik azərbaycanlının yaşadığı və Bakının qəti əleyhinə olan İrandır.

***- Sizcə, Zəngəzur dəhlizinin açılmasından kim və nə üçün faydalanmır?***

- Zəngəzur Dəhlizi, Naxçıvan Muxtar Respublikasını Ermənistan vasitəsilə Azərbaycanın qalan hissəsi ilə birləşdirəcəyi təklif olunan nəqliyyat dəhlizidir. Ermənistan bu dəhlizin açılmasına qarşıdır. Prezident İlham Əliyevin əmiliklə verdiyi sözlərə baxmayaraq, Azərbaycanın Ermənistana ərazi iddiaları irəli sürə biləcəyindən narahatdır.

***- İrəvan qisas almaq arzusundadır. Bunu etməyə onun gücü varmı?***

- Paşinyan Rusiyaya münasibətini dəyişərsə və ya məsələn, Ermənistanda rusiyapərəst bir hökumət seçilərsə, onda hesab edirəm ki, ermənilərin Rusiya və İranın hərbi qüdrətinə söykənəcəkləri üçün İrəvanın qisas almaq istəyi realdır.

***- Ermənistanı üçtərəfli bəyanatın bütün məqamlarına necə uyğunlaşdırmaq olar?***

- İndiki vəziyyətdə "qeyri-stabil" sülh Azərbaycanın müstəqilliyinin bərpasından sonra Azərbaycan torpağında ilk dəfə yerləşən rus hərbçiləri- Rusiya "sülhməramlıları" və Rusiya-Türkiyə birgə monitorinq mərkəzi tərəfindən idarə olunur.

Üçtərəfli bəyanata riayət olunmasını təmin etmək üçün Azərbaycanın Qərbdən, o cümlədən BMT kimi beynəlxalq təşkilatlardan dəstək almasına ehtiyac var. Ancaq əvvəlcə erməni təbliğatına və erməni diasporunun təsirinə müqavimət göstərmək lazımdır. Mən də öz növbəmdə Azərbaycan xalqına uğurlar arzulayıram və məcburi köçkünlərin öz evlərinə qayıdacaqlarını səbirsizliklə gözləyirəm.

***Tərcümə - Elçin Bayramlı***

## Ruslar miqrantlara "dolğun bir həyat" təklif edir



***Rusiya Daxili İşlər Nazirliyi, miqrantlar üçün xüsusi bir şəxsiyyət vəsiqəsi hazırladıb(?). Belə ki, həmin şəxsiyyət vəsiqəsi əmək miqrantlarına dövlət xidmətlərinin alınmasını və digər xidmətlərdən istifadəni asanlaşdıracaq.***

Bundan əlavə, əcnəbilərin Rusiya Federasiyasında qalmalarının qanuniliyini təsdiq etmələri daha asan olacaq.

Rusiya Daxili İşlər Nazirliyinin Miqrasiya Məsələləri Baş İdarəsinin rəis müavini Kirill Adzinovun dediyinə görə, verilən sənəddə miqrantın şəxsi məlumatları, statusu, vizanın verilməsi və onun etibarlılıq müddəti haqqında məlumatlar yer alacaq.

Yəni bu sənəd içində biometrik məlumatlar, mövcud vəziyyət, verilən viza, onun etibarlılıq müddəti və s. daxil olmaqla şəxsi məlumatları özündə ehtiva edən elektron bir daşıyıcı (çip) olacaq .

Qeyd edək ki, bir müddət bundan əvvəl, elə bu ayın ortalarında Rusiya Prezidenti Vladimir Putin, əmək miqrantlarının Rusiyaya uyğunlaşmalarını asanlaşdırmaq üçün rus dilini bilmələrinin lazım olduğunu söyləmişdi. Dövlət başçısı onu da xatırlatmışdı ki, rus dili elə bu gün də MDB ərazisində sivilizasiya məkanını birləşdirən qüvvə kimi çıxış edir. Putinin fikrincə, buna görə də, miqrantlar Rusiya və Rusiya mədəniyyətinin nə olduğunu anlamalı, ölkə xalqları arasındakı əlaqəni bilməlidirlər.

Yadınızda olar, həmən çıxışə zamanı Putin onu da qeyd etdi ki, bu, yalnız pul qazanmaq üçün deyil, həm də miqrantların dolğun bir həyat yaşamaq üçün lazımdır.

***Ağasəf Babayev***

## YAP Gənclər Birliyi ABŞ-ın Azərbaycandakı sabiq səfiri Metyu Brayza ilə videokonfrans formatında görüş keçirib





***Oktyabrın 20-də Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin təşkilatçılığı ilə "Vətən müharibəsinin bir illiyi: müharibədən sonra inkişaf və perspektivlər" mövzusunda Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki sabiq səfiri Metyu Brayza ilə videokonfrans formatında görüş keçirilib.***

Görüşdə YAP Gənclər Birliyinin üzvləri və fəal gənclər iştirak ediblər.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində əldə olunan böyük Zəfərdən danışıb. İşğaldan azad edilən torpaqlarımızda Böyük Qayıdış strategiyasının həyata keçirilməsi ilə Azərbaycanın bölgədə dayanıqlı sülhün inkişafına töhfə verəcəyini qeyd edib.

Sonra görüşün moderatoru, YAP Gənclər Birliyinin üzvü Anastasiya Lavrina Vətən müharibəsindən sonrakı mərhələdə gənclərin analitik məlumatlarla təmin olunmasının önəmini diqqətə çatdırıb, ABŞ-ın ölkəmizdəki səfiri Metyu Brayzaya mövzu ətrafında suallar ünvanlayıb.

YAP Gənclər Birliyinə dəvətə və göstərilən diqqətə görə təşəkkürünü bildirən Metyu Brayza postmünaqişə dövründə regiondakı siyasi və iqtisadi perspektivlər, bölgədəki sülh prosesinin inkişafı və bu prosesin sürətləndirilməsi üçün atılacaq addımlara dair öz fikirlərini görüş iştirakçıları ilə bölüşüb.

Qeyd edək ki, videokonfrans formatında keçirilən görüş Yeni Azərbaycan Partiyasının və YAP Gənclər Birliyinin facebook səhifələrindən canlı şəkildə yayımlanıb.




# Ölkəmizdə koronavirusla mübarizə davam edir

***Dünya ölkələrində koronavirus - COVID-19 pandemiyası ilə mübarizə davam etməkdədir. İnkişaf etmiş bir dünyada yaşamağımıza baxmayaraq, hələ də pandemiyanın qarşısının alınmasına nail olunmayıb. Bu gün də pandemiyanın vurduğu zərbədən dünya əziyyət çəkir. Artıq iki ilə yaxındır ki, dünya ölkələrində bu xəstəlik baş qaldırıb və insanlar bunun qurbanına çevrilir.***

ŞƏRH

2019-cu ilin sonunda baş qaldıran xəstəlik bu gün də davam edir. Xatırladaq ki, qısa bir zamanda dövlətlərarası sərhədlərin bağlanması ölkələrin iqtisadiyyatına təsirsiz ötüşmədi. Bu gün bütün dünya ölkələri ilə yanaşı, dövlətimiz də pandemiya ilə üz-üzə qalıb. Azərbaycan da iki ilə yaxındır ki, bu virusla mübarizəni davam etdirir. İlk gündən başlayaraq, ölkəmizdə təxirəsalınmaz tədbirlər həyata keçirilib. Ölkə Prezidenti İlham Əliyevin göstərişi əsasında Nazirlər Kabinetinin Sərəncamı ilə 2020-ci il 30 yanvar tarixində Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı təsdiq edildi. Koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında Operativ Qərargah yaradıldı. Fevralın 28-də ölkədə COVID-19-un ilk müsbət nəticəsi təsdiqləndi. COVID-19 infeksiyasının yayılmasının qarşısını almaq, bu sahədə görülən tədbirlərin səmərəliliyini artırmaq və tibbi profilaktikanı gücləndirmək məqsədi ilə 3-9 mart tarixləri arasında ölkənin bütün təhsil müəssisələrində tədris prosesləri və digər əlaqəli fəaliyyətlər dayandırıldı. Dezinfeksiya və digər profilaktik tədbirlər həyata keçirildi. Bir müddət sonra məhdudiyyətlərin bir qisminin yumşaldılmasına qərar verildi.Virusun geniş şəkildə insanlar arasında yayılmasının qarşısının alınması üçün vaxtında həyata keçirilən çevik, təxirəsalınmaz və zəruri qabaqlayıcı tədbirlər Azərbaycan modelini nümunə olaraq bir daha ortaya qoymuş oldu.



Prezident İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə koronavirusla mübarizə məqsədilə modul tipli xəstəxananların tikilməsi, "Yeni Klinika"nın açılması və s. əhalinin sağlamlığının qorunmasına yönəlmişdir. Beləliklə, Azərbaycan bu infeksiyanın yayılmaması və qarşısının alınması məqsədi ilə davamlı tədbirlər keçirdi. Davamlı olaraq reallaşan tədbirlər dünya ölkələri ilə müqayisədə öz müsbət nəticəsini vermiş oldu. Görülmüş bu və ya digər tədbirlər vəziyyətdən az itkilərlə çıxmaq məqsədi daşıyır. 2020-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı pandemiya ilə mübarizə sahəsində nümunəvi ölkə adlandırması da görülən işlərə verilən qiymət idi. COVID-19 ilə bağlı dünya statistikasına baxdıqda ölkəmizdə əldə edilmiş nəticələr doğrudan da çox təsirlidir. Məhz bu tədbirlər nəticəsində minlərlə insanın həyatı qorunub. Vaxtında atılan addımlar, verilən müdrik qərarlar, həyata keçirilən layihələr bir daha sübut edir ki, möhtərəm Prezidentimizin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır, xalqının rifahı onun üçün hər şeydən üstündür. Hər bir vətəndaş məsuliyyətsizliyi, biganəlik, sanitar qaydalara əməl etməmək yoluxma sayının yenidən artmasına səbəb olur. Operativ Qərargah tərəfindən karantin qaydalarında yumşalmalar vətəndaşlarımızı arxayınlaşdırmamalı, xüsusi karantin rejiminin qaydalarına ciddi əməl edilməlidir. Bu gün dövlətimiz milli səviyyədə, COVID-19-la mübarizədə səmərəli tədbirlər görür, eyni zamanda, regional və qlobal miqyasda da koronavirusa qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə öz töhfəsini verir. Ölkəmiz, koronavirus pandemiyasından daha çox zərər çəkən ölkələrə yardımlar göstərib. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi etmişdir ki, onun yarısı Qoşulmama Hərəkatının üzvlərinə birbaşa yardım idi: "Bununla yanaşı, koronavirusa qarşı mübarizələrini dəstəkləmək üçün biz Qoşulmama Hərəkatının üzvləri daxil olmaqla, 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərmişik. Azərbaycan təmənnasız olaraq dörd ölkəyə 150 min doza peyvənd ianə etmişdir".

Təbii ki, COVID-19-la mübarizədə qalib gəlmək üçün virus əleyhinə peyvəndlənmə vacibdir. Ölkəmizdə koronavirus əleyhinə vaksinasiya prosesi 2021-ci il yanvarın 18-də başlayıb. Bu proses 2021-2022-ci illər üçün təsdiqlənmiş Vaksinasiya Strategiyası çərçivəsində aparılır. Vaksinasiya zamanı "CoronaVac", "Vaxzevria", "Sputnic V", "Pfizer", "Sinovac" kimi peyvəndləri istifadə edilir. Statistika göstərir ki, COVID-19 testi pozitiv olanların 90 faizindən çoxu peyvənd olunmamış şəxslərdir. Bu gün ölkəmizdə əhaliyə vurulan vaksinlərin ümumi sayı 9 milyonu ötüb. Bu ölkəmizdə vaksinasiyanın uğurla reallaşdığının göstəricisidir.

Bu gün yoluxma sayının dörd rəqəmli olması artıq həyəcan təbili çalır. Hər bir vətəndaş məsuliyyətsizliyi, biganəlik, sanitar qaydalara əməl etməmə yoluxma sayının yenidən artmasına səbəb olur. Operativ Qərargah tərəfindən karantin qaydalarında yumşalmalar vətəndaşlarımızı arxayınlaşdırmamalı, xüsusi karantin rejiminin qaydalarına ciddi əməl edilməlidirlər.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Zəngilanın işğaldan azad edilməsi ilə təhlükəsizliyimizi tam təmin etdik"




"Azərbaycan torpaqları 30 ilə yaxın müddətdə işğalda saxlanılıb. Bu rayonlarımızdan biri də Zəngilan rayonu idi. Zəngilan rayonu İran-Ermənistan sərhəddində yerləşən və çox böyük strateji əhəmiyyətə malik ərazidir. Uzun illər ərzində ermənilər bu ərazilərdə azərbaycanlılara qarşı törətdikləri mədəni və hərbi cinayətlərlə yanaşı ekoloji terror da törədiblər. Zəngilanın zəngin təbiəti var və burada yerləşən Bəstiçay Dövlət Təbiət Qoruğunda nadir şərq çinarları da qorunub saxlanılırdı ki, ermənilər bu çinarları qırıb yandırmaqla məhv ediblər". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Naqif Həmzəyev deyib.

Deputatın sözlərinə görə, həmçinin, Ermənistanda yerləşən Zəngəzur mis-molibden və Qafan mis filizsaflaşdırma kombinatlarının təmizlənməmiş istehsalat suları tərkibindəki ağır metallar və radioaktiv maddələrin miqdarı normadan min dəfədən çox olan tullantılar sular vasitəsilə Zəngilandan keçərək Araz çayına tökülən Oxçuçayı çirkləndirib və bu çayda yaşayan bütün nadir balıq növlərinin məhv olmasına səbəb olublar: "Zəngilanın işğaldan azad edilməsi bu torpaqların faktiki olaraq Azərbaycan nəzarətinə keçməsi ilə ermənilərin ekoloji terrorunun dayandırılmasına gətirib çıxardı. Düzdür, dəymiş ekoloji ziyanı aradan qaldırmaq uzun illər tələb edəcək".

N.Həmzəyev vurğulayıb ki, xalqımız tərəfindən torpağımızın işğaldan azad olunması bir il bundan öncə böyük sevinc hissi ilə qarşılandı və möhtərəm cənab Prezidentin çıxışı zamanı Füzuli rayonunun bir çox kəndinin işğaldan azad olunmasını, o cümlədən Zəngilan rayonunun da işğaldan azad olunması xəbərini səsləndirəndə hər kəs sevindi və fəxr hissi duydu: "Zəngilanın işğaldan azad olunması ilə İran boyu yerləşən sərhədlərimiz tamamilə nəzarətə götürüldü. Bu da istər-istəməz Azərbaycanın digər cəbhədə digər ərazilərdə hücum əməliyyatlarının həyata keçirilməsinə zəmin yaradırdı. Artıq biz cənub hissədən təhlükəsizliyimizi tam təmin etmişdik. Məhz, Zəngilanın işğaldan azad edilməsindən sonra Azərbaycan ordusu digər istiqamətlərdən uğurlu əməliyyatlar keçirərək nəhayət 8 noyabr tarixində Şuşanı işğaldan azad etdi. Biz çox sevinir və fəxr hissi duyuruq ki, 1 il bundan öncə bu şərəfli tarixi yaşadıq. Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusu erməni faşistlərini və terroristlərini işğalda olan torpaqlarımızdan qovub çıxardı. 1993-cü ilin oktyabr ayının 29-da Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Zəngilan rayonu 2020-ci ilin 20 oktyabr tarixində işğaldan azad olundu".

***Aysel Məmmədova***

# "Aylıq təqaüd və müavinətlərdə artım var"

***"Sözsüz ki, ölkədə fəaliyyət göstərən sistem formalaşdırıcı dövlət qurumlarının idarəetməsindəki problemlər mütəmadi olaraq tariflərə yenidən baxılmasına gətirib çıxarır.***

İQTİSADÇI ŞƏRH ETDİ

Dövlət başçısı dəfələrlə sistem formalaşdırıcı dövlət qurumlarının idarəedilməsindəki problemlər barədə konkret olaraq öz iradlarını bildirmişdi". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Elşad Məmmədov deyib.Onun sözlərinə görə, doğrudan da o iradların nə dərəcədə obyektiv olması bu gün açıq-aşkar görünməkdədir: "Bununla yanaşı, şübhəsiz ki, ölkədə reallaşdırılan sosial siyasət nöqteyi-nəzərdən kifayət qədər dayanıqlı trendlərin şahidi oluruq. Belə ki, 3 il və 3 ildən artıq çox müddətdə ölkədə reallaşdırılan sosial siyasət, sosial müdafiə sahəsindəki şəffaflığın həyata keçirilməsi xeyli dərəcədə xarici iqtisadi təsirləri, pandemiyanın təsirlərini yumuşaltmış oldu. Eyni zamanda, sosialyönümlü siyasət tariflərin yüksəlməsinin mənfi nəticələrini xeyli dərəcədə yumuşaltmış olur".Elşad Məmmədov sözlərinə belə davam edib: "Ötən illər ərzində ölkədə minimum əmək haqqı 2 dəfəyə yaxın artmışdı. Bir o qədər də aylıq təqaüd və müavinətlərdə artım var. Eyni zamanda, büdcə təşkilatlarındakı 50 faizlik əməkhaqqı bütövlükdə ölkədə əməkhaqqı fondunun artımına şərait yaratdı. Ölkədə orta əməkhaqqı 40 faizə yaxın artmışdı"."Eyni zamanda, ən mühüm məqamlardan biri odur ki, büdcə təşkilatlarındakı əməkhaqlarının artımı bütövlükdə iqtisadiyyatda əməkhaqqı fondunun artımını sitimullaşdırır, ona şərait yaradır və biz görürük ki, əməkhaqqı fondunun milli gəlirə münasibətində müsbət dəyişikliklər kifayət qədər açıq şəkildə görünür. Bu da sevindirici haldır"."Beləliklə, ölkədə ardıcıl sosial müdafiə istiqamətindəki siyasətin həyata keçirilməsi bir çox neqativ proseslərin qarşısını almaqdadır və bu siyasət bundan sonra da ardıcıl şəkildə davam etdirilməlidir"."Qeyd etmək lazımdır ki, ölkə Prezidentinin bu gün imzaladığı sərəncama görə, hökumətə tapşırılır ki, növbəti ilin büdcəsində xeyli dərəcədə müavinətlərin, pensiyaların, əməkhaqqının artırımı nəzərdə tutulsun. Bu da birdaha onu deməyə əsas verir ki, Azərbaycanda sosialyönümlü siyasət davam etdiriləcək və neqativ iqtisadi halların qarşısının alınması nöqteyi-nəzərdən dövlət başçısının rəhbərliyi ilə effektiv tədbirlərin həyata keçirilməsinə böyük ehtiyac var. Eyni zamanda, biz görürük ki Azərbaycanda sosial sahəyə istiqamətlənmiş xərclərin artırılması, bir çox iqtisadi və sosial problemlərin qarşısını ala bilər. Həm dövlət başçısı, həm aidiyyatı hökumət qurumları səviyyəsində sosial müdafiə siyasətinin möhkəmləndirilməsi açıq-aşkar görünür və düşünürəm ki, bu tədbirlər ardıcıl şəkildə davam etdirilməlidir".




***Ayşən Vəli***

# Zəngilanın azad edilməsi - yeni perspektivlər

***Zəfər tarixinə düşən hər gün Azərbaycan xalqının yaddaşında əbədiləşib və bu günlər unudulmazdır. Bu baxımdan, düz bir il bundan əvvəl Zəngilanın azad edilməsi və bununla bağlı 20 oktyabr tarixi də şanlı zəfər tariximizin silinməz salnamələrindəndir. Zəngilan rayonunun işğaldan azad edilməsinin həm tarixi, həm siyasi, həm də iqtisadi əhəmiyyəti isə sözsüz ki, danılmazdır.***

Təbii ki, Zəngilanın timsalında işğal altında olan ərazilərimizin düşmən tapdağından, işaldan azad edilməsi ilk növbədə tarixi uğurumuzdur və tarixi əhəmiyyətlidir. Çünki, Zəngilanın 30 ilə yaxın müddətdə işğal altında olan əraziləri məhz bu gün, 20 oktyabr tarixində Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi, qətiyyəti, uzaqgörənliyi, eləcə də Azərbaycan Ordusunun şücaəti, əzmi sayəsində, xalqımızın həmrəyliyi ilə düşmən tapdağından azad edildi və bu tarix heç zaman unudula bilməz. Eyni zamanda bu şanlı zəfər savaşında da şəhid olan həmvətənlərimizin xatirəsi xalqın qəlbində əbədi yaşayır, yaşayacaq və qazilərimizə hörmət, ehtiram, sayqı da sonsuzdur. Məhz bu baxımdan Zəngilanın işğaldan azad olunması tarixi hər zaman xatırlanacaq, təbii ki, hər il bu tarix ildönümü kimi qeyd olunacaq, ehtiramla yad ediləcək, qürur və fəxarət hissi ilə xatırlanacaq.

Gələcək nəsillər üçün bu gün, digər zəfər tarixləri kimi vətənpərvərlik, cəsurluq, mərdlik nümunəsi tarixi olacaq. Bundan sonra illər ötsə də Azərbaycan xalqı bu şanlı zəfərlər barədə faktları, tarixi hadisələri nəsillərdən-nəsillərə ötürəcək, xatirəsini əbədiləşdirəcək. Heç şübhəsiz ki, bu tarix bir örnəyə çevriləcək. İşğal altında olan ərazilərimizin, eləcə də Zəngilan torpağının işğaldan azad edilməsində cəsurluq göstərən, döyüşən, əzm və iradə nümayiş etdirənlər hər bir Azərbaycan vətəndaşı, bu xalqın hər nümayəndəsi üçün bundan sonra nümunə sayılacaq və bu günün bir tarixi əhəmiyyəti də məhz bundan ibarətdir.

Sözsüz ki, ərazilərimizin, eləcə də Zəngilan torpaqlarının işğaldan azad edilməsinin siyasi əhəmiyyəti də son dərəcə böyükdür. Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də başladığı əks-hücum nəticəsində Zəngilan şəhəri 2020-ci il oktyabrın 20-də, döyüşlərin 24-cü günü erməni işğalından azad edilib, hansıki, bu böyük uğur, ordumuzun düşmən tərəfindən, ermənilərin ordusundan dəfələrlə qüvvətli olduğunu təsdiqləyir.

Digər tərəfdən düşmənin ən qısa zamanda sıxışdırılaraq geri çəkilməyə məcbur edilməsi dırnaqarası, "yenilməz erməni ordusu" yalanlarının, mifinin darmadağın edilməsidir. Bu, illər boyu ermənilərin guya qüdrətli orduya malik olması barədə dünya ictimaiyyətini aldatmaq cəhdlərinin tamamilə puça dönməsi deməkdir ki, müasir texnologiyaların sayəsində bütün dünya bunu da müşahidə edə bilib. Artıq müşahidələrdən belə aydın idi ki, Azərbaycan qələbələrə doğru gedir və nəticə də bunu isbatladı. Bir sözlə, döyüşlərdə qələbələri ilə Azərbaycan öz üstünlüyü barədə bəyan edirdi.

Bunu da nəzərə almaq lazımdır ki, düşmənin itgilərdən, eləcə də qorxudan başını itirərək digər ərazilərimizdə olduğu kimi, Zəngilan torpaqlarını da qoyub qaçması bir çox məqamlara aydınlıq gətirir. Azərbaycan əsgəri canını vətən yolunda, torpaqlarımız uğrunda qurban dediyi halda, döyüşlərdə canından keçsə də geri çəkilmədiyi halda, ermənilərin fərarilik etmələri, Zəngilanın timsalında döyüş zonalarını qoyub qaçmaları da təsdiq etdi ki, bu torpaqlar Azərbaycan torpaqlarıdır və ermənilərə heç aidiyyatı yoxdur. Çünki, torpaq uğrunda bu torpağın yalnız sahibləri belə vuruşa, mübarizə apara bilərlər və torpaqları qoyub qaçanlar ərazilərin sahibi ola bilməzlər. Bunu bütün dünya ictimaiyyəti də bir daha gördü və həqiqətlərin, reallıqların şahidi oldu. Şahidi oldu ki, həqiqətən də Zəngilanın timsalında, işğal altında olan torpaqların, ərazilərin sahibi azərbaycanlılardır, ermənilər deyil və məhz buna görə də Azərbaycan əsgəri canını fəda edərək döyüşlərdə iştirak edir, cəsurluq göstərir, bir qarış torpaqdan belə geri çəkilmir. Bu həm də ona işarədir ki, bundan sonra da Azərbaycan dövləti, Azərbaycan xalqı bir qarış torpağının belə əldən getməsinə izn verməyəcək və Azərbaycan öz torpaqlarını, ərazi bütövlüyünü qorumaq əzmindədir.








Zəngilan ərazilərinin işğaldan azad edilməsinin iqtisadi baxımdan əhəmiyyətini isə sadalamaqla bitən deyil. Çünki, Zəngilan rayonu iqtisadi və coğrafi nöqteyi-nəzərdən əlverişli potensiala malikdir. Hər iki tərəfdən müxtəlif ölkələrlə həmsərhəd olan rayon qərbdə dağlıq, şərqdə düzənlik əraziyə malikdir. Bu özəlliklər əlbəttə ki, Zəngilan rayonunun şaxəli resurslara malik olması barədə ilkin təəssüratlar formalaşdırır. Rəsmi hesablamalara görə, işğaldan azad edilən iqtisadi rayonlarda, qızıl, gümüş, mis, dəmir, sink, qranit, mərmər, qiymətli daşlar, odadavamlı gil və digər faydalı qazıntılar olmaqla, 155 müxtəlif növ mineral yataqlar mövcuddur.

İki ölkə ilə qonşu dəhlizlərə malik olan Zəngilan rayonu xarici ticarət üçün unikal imkanlara sahibdir. Rayonun tranzit nöqteyi-nəzərdən xüsusi özəlliyi var ki, bu da ticarət münasibətlərinin daha da inkişafına töhfələr verə bilər. Kəlbəcər-Laçın iqtisadi rayonunda Kəlbəcərdən sonra ikinci daha böyük və sənaye əhəmiyyətli 6,5 ton qızıl və 3 min ton mis təşkil edən "Vecnəli" yatağı, ehtiyatları 6 milyon 618 min kubmetr olan və üzlük daşı istehsalına yararlı Oxçuçay mərmərləşmiş əhəngdaşı, təsdiq edilmiş ehtiyatları 129 milyon ton olan Zəngilan (Daşbaşı-Əsgurum) əhəngdaşı, ehtiyatları 6 milyon 24 min ton olan qırmadaş və əhəng istehsalına yararlı Zəngilan əhəngdaşı, ümumi ehtiyatları 28 milyon 943 min kubmetr təşkil edən Bartaz-I və Bartaz-II porfirit, ehtiyatları 1 milyon 102 min kubmetr olan kərpic-kirəmid istehsalına yararlı Zəngilan gil və ehtiyatları 17 milyon 367 min kubmetr olan Zəngilan qum-çınqıl qarışığı yataqları da mövcuddur. Bir sözlə, Zəngilan zəngin ehtiyatlara malikdir və bu ərazilərin işğaldan azad edilməsi həmin ehtiyatların düşmən tərəfin istismarına son qoyulması, eləcə də həmin ehtiyatlarımızdan yararlanmağımız deməkdir ki, bunun da iqtisadiyyata müsbət təsiri gözləniləndir.

Zəngilan rayonunun turizm potensialına malik olması bu rayonun coğrafi müxtəlifliyinin bariz nümunəsidir. Avropada misli-bərabəri olmayan Şərq çinarları, qoz və digər qiymətli ağaclar məhz bu zonada yerləşir. Yaşı 500-ə yaxın, uzunluğu 12 kilometrə çatan çinar meşəliyi Bəsitçay qoruğunda saxlanılır. Bəsitçay qoruğu 1974-cü ildə Bəsitçayın dərəsində, Azərbaycanın cənubi-qərbində işğal olunmuş Zəngilan ərazilərində yaradılmışdı. Qoruğun sahəsi 107 hektardır. Qoruqda yerləşən Şərq çinarı "Qırmızı Kitab"a daxil edilib. Təəssüflər olsun ki, erməni işğalçıları tərəfindən kəsilərək yüngül sənayedə və digər biznes məqsədləri üçün istismar edilən ağaclar da iqtisadi cinayətkarlığın qurbanına çövrilib.

Göründüyü kimi, Zəngilan rayonu mədən, tikinti sənayesi və turizm potensialı üçün əlverişli iqtisadi mühitə malikdir. Şübhəsiz ki, 30 ilə yaxın müddət ərzində istismar edilən təbii sərvətlər ölkəmizin resurslarına qarşı ermənilərin növbəti faşist siyasətinin nümunəsidir. Çünki, ermənilər həmin ərazilərimizdə bizə məxsus olan sərvətləri təkcə istismar etməyiblər, həm də bu əraziləri viran qoyublar.

Heç şübhəsiz ki, Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Zəngilan şəhərinin işğaldan azad olunması ölkəmizin iqtisadi inkişafına əhəmiyyətli dərəcədə müsbət təsir edəcək. Daha doğrusu Zəngilanın işğaldan azad edilməsi bu ərazilərin resursları ilə ölkə iqtisadiyyatı daha da sürətləndiriləcək. Əvvəla, daxili tələbin qarşılanmasında Zəngilan rayon təbii sərvətləri əhəmiyyətli rol oynayacaq. Digər tərəfdən də son illər mineral resurslarımızın ixracı qeyri-neft sektorunda lider mövqelərdə təmsil olunur və bu baxımdan həmin sərvətlərin ixracı dövlət büdcəsi üçün böyük vəsaitlər deməkdir. Məsələn, qızıl ixracı həyata keçirən dövlət şirkətinin ixracı aylıq ortalama 10-18 milyon ABŞ dolları arasında dəyişir. Bu baxımdan, Zəngilan rayonunda sənaye əhəmiyyətli 6,5 ton qızıl və 3 min ton mis təşkil edən "Vecnəli" yatağından istifadə ilə ölkəmiz mineral resurslar ixracını daha da artıracaq. Bunun da sözsüz ki, dövlətin iqtisadi inkişafına əhəmiyyətli dərəcədə müsbət təsiri gözləniləndir.

Ümumiyyətlə, Zəngilanın işğaldan azad olunmasının əhəmiyyəti nə sadalamaqla bitən deyil, nə də danılan. İndi Zəngilanda da abadlıq-quruculuq işləri gedir və "Böyük Qayıdış" planları bu ərazilərimizdə də sürətlə reallaşır. Cənab Prezidentin apardığı uğurlu, məqsədyönlü, düşünülmüş və qətiyyətli siyasət sayəsində ölkəmizin nəinki ərazi bütövlüyü, suverenliyi təmin edilib, həmçinin inkişafa yeni pəncərələr açılıb. Məhz imkanlarını və ehtiyatlarını nəzərə alsaq, Zəngilanın işğaldan azad edilməsi ölkəmizin inkişafı üçün yeni perspektivlər vəd edir. Bu perspektivlər də öz növbəsində suverenliyimizin, müstəqilliyimizin, təhlükəsizliyimizin qorunmasını daha da gücləndirir, bunun üçün əsaslı zəmin yaradır.

***İnam Hacıyev***

# Vətənin əbədiyaşar igidləri!

## YAP Biləsuvar rayon təşkilatının əməkdaşları şəhid ailəsini ziyarət ediblər





Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının sədr əvəzi Aqşin Bağırov, təşkilatın əməkdaşları və fəalları 20 oktyabr 2021- ci il tarixdə 44 günlük Vətən müharibəsində vətənimizin müdafiəsi uğrunda öz canından keçən Biləsuvar rayon Bağbanlar kəndindən olan şəhid Əmənov Məhəmməd İltizam oğlunun ildönümü ilə əlaqədar olaraq ailəsini ziyarət ediblər. Daha sonra şəhidimizin məzarı ziyarət olunub, məzarı üzərinə tər gül dəstələri düzülərək əziz xatirəsi böyük ehtiramla yad edilib və ruhuna dualar oxunub. Allah rəhmət eləsin!

*Rəfiqə*

## Şəhid Məmmədov Murad Elşən oğlunun Nizami rayonunda anım günü keçirilib





Oktyabrın 20-də 44 günlük Vətən Müharibəsində şəhid olmuş qəhrəman oğullarımızdan biri - Məmmədov Murad Elşən oğlunun Nizami rayonunda anım günü keçirilib. Anım mərasimində Nizami rayon İcra Hakimiyyəti başçısının müavini İldırım Mehdiyev, Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri Ramil



Vəlibəyov, Missiya Media Qrupunun rəhbəri Ramin Əhmədov, şəhidin doğmaları, şəhid anaları və rayon ictimaiyyəti iştirak ediblər. Şəhid Murad Məmmədovun Keşlə qəsəbəsindəki Şəhidlər Xiyabanında məzarı ziyarət olunaraq ruhuna dualar edilib, onun və şəhid olmuş digər igid Vətən oğullarımızın unudulmaz xatirəsi dərin ehtiramla yad olunub.

Qeyd edək ki, Murad Məmmədov Vətən müharibəsi zamanı Füzulinin və Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib, Hadrut uğrunda gedən döyüşlərdə şəhid olub. Şəhid Murad Məmmədov ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib. Mərasimdə çıxış edən şəhidin yaxınları öz xatirələrini bölüşüblər, ölkə rəhbərliyinə şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

*Rəfiqə*

## Qubada şəhid Eynulla Lətifovun ailəsi ziyarət olunub





YAP Quba rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Yusif Abidov və partiya fəalları tərəfindən torpaqlarımızın azadlığı uğrunda canından keçərək, şəhadətə yüksəlmiş Quba rayon İkinci Nügədi kəndindən olan şəhid Lətifov Eynulla Niyətulla oğlunun ildönümü ilə əlaqədar ailəsi ziyarət olunub, şəhidin əziz xatirəsi ehtiramla anılıb. Xatırladaq ki, Eynulla Lətifov Füzuli, Cəbrayıl və Xocavənd istiqamətində gedən döyüşlərdə xüsusi qəhrəmanlıq göstərib. Qəfildən səngərdə partlayan mərmi Eynullanın həyatına son qoydu. Ürəyində vətən məhəbbəti yaşadan Eynulla, qeyrətli bir Azərbaycan oğlu, əbədi olaraq gözlərini yumdu. Ölümü ilə ölümsüzlüyə qovuşan şəhidimiz Prezident İlham Əliyevin sərəncamlarına əsasən, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub. Uyuduğu məzarlığın yaxınlığındakı küçəyə Eynulla Lətifovun adı verilib. Şəhid ailəsinə "Sədərək Merinos" xalça sexi Eynullanın şəkli əks olunmuş xalça, Azərbaycan Respublikası Gəncliyə Yardım Fondu "Qurani-Kərim"i hədiyyə edib.

YAP Quba rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Yusif Abidov bildirib ki, Azərbaycan dövləti şəhidlərimizin xatirəsini həmişə uca tutur. Şəhidlərimiz Vətənimizin işğaldan azad olunmuş torpaqları uğrunda öz canından keçərək, Şəhidlik zirvəsinə ucalıblar. O, qeyd edib ki, şəhidlərimiz kimi, onların ailələri də bizim üçün çox qiymətli və dəyərlidirlər. Şəhidlərimizin, qazilərimizin keçdikləri şərəfli ömür yolu gələcək nəsillərə örnəkdir. Torpaqlarımızın azadlığı, Vətənimizin düşmən tapdağından azad olunması üçün canından keçən Azərbaycanın mərd oğulları bizim qürur mənbəyimizdir.

Sonra Y.Abidov şəhid ailəsinin problemləri ilə maraqlanıb və ailəyə səbr diləyib.

*Nəzakət ƏLƏDDİNQIZI*

## YAP Qobustan rayon təşkilatının fəalları şəhidlərin məzarlarını ziyarət etmişlər





Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Füzuli Gülaliyev və YAP fəalları Qobustan rayonu Bəklə kəndindən şəhid olan "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuş gizir Gərayev Tural Şahin oğlu və I-Qarabağ müharibəsi Şəhidi Gərayev Kənan Valeh oğlunun məzarlarını ziyarət etmişlər Şəhidlərin məzarı önünə tər gül dəstələri düzüb, onların əziz xatirəsinə ehtiramlarını bildirib, ruhlarına dualar oxunmuşdur.

Təşkilat sədrinin səlahiyyətlərini icra edən Gülaliyev Füzuli bildirib ki, biz şəhidlərimizin ruhu qarşısında baş əyirik. Əzəli və əbədi torpağımız olan Qarabağın işğaldan azad olunmasında canlarını fəda etmiş şəhidlərimizin ailələrinə və valideynlərinə səbr diləyirik: "Azərbaycan xalqı mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir. Şəhidin yaxınları öz xatirələrini bölüşüblər, ölkə rəhbərliyinə şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər. Vətən Müharibəsi Şəhidlərinin xatirəsinə inşa edilən "Şəhidlər bulağı"nda tikinti ilə tanış olmuşlar, işlərin gedişi ilə maraqlanmışlar.

*Rəfiqə*



# İqbal Ağazadənin ciddi ittihamı: İsa Qəmbərin sovet nomenklaturası

TƏRS BAXIŞ

**Yaxud, Müsavatın qərargahından çıxan torba-torba pullar hara getdi?**

2003-cü ilin 15-16 oktyabr hadisələri ətrafında bu gün də və əsasən müxalifət daxilində aparılan qızğın müzakirələr qızğın mü-



bahisələrə əvəzlənir və həmin mübahisələr kəskin ittihamlara, suçlamalara, hətta dava-dalaşlara qədər inkişaf edir. Söz yox ki, hər dövr bir tarixdir və bu tarixin pis səhifələri də olur, yaxşı səhifələri də. Amma elə səhifələri də olur ki, həmin səhifələr "qara səhifə" adlandırılır.

Bax, 2003-cü ilin oktyabrı xalqımız üçün, dövlətimiz üçün yeni səhifə açsa da, bu səhifəni qaralamağa çalışan qüvvələr də olub və onların əksər çoxu hazırda da siyasi gündəmdə qalmaqda davam edirlər. Kimiləri nə qədər səhvə yol verdiklərini anlayaraq susur, kimiləri də hələ kütlə eyforiyası ilə küçədə 2000-ci illərin əvvəlləri olduğunu öz sağalmaz, xəstə təfəkkürü ilə sanmağa davam edir. Necə deyərlər, öz işləridir, amma...

**Onun ciddi siyasətçi olduğunu da nəzərə alsaq...**

Məsələ ondadır ki, bugünlərdə məhz 2003-cü ilin 15-16 oktyabr iğtişaşlarında baş rollardan birini almış Ümid Partiyasının sədri İqbal Ağazadə həmin vaxtlarda keçirilmiş prezident seçkilərinin nəticələri ilə razılaşmayaraq özünü "prezident" elan edən İsa Qəmbəri ittiham atəşinə tutub. Halbuki, həmin gün "Azadlıq" Meydanında sosialist inqilabının rəhbəri olmuş Vladimir İliç Leninin sökülən heykəlinin pyedestalı üzərinə çıxan da, əlini Lenin kimi irəli uzadaraq başıpozuq kütləyə "irəli" əmrini verən də elə İqbal Ağazadə olub. Bəlkə də indi həmin hadisələrə görə peşman olduğunu, İsa Qəmbər kimi siyasi dələduza dəstək göstərməsinə görə qəlbən təəssüf etdiyini düşünən Ümid Partiyasının sədri indi-indi həmin səhvlərini anlayaraq açır sandığı, tökür pambığı. Pambıqların işindən isə çıxan



xəbərlərə görə, məhz həmin vurhavurda Qərb dairələrindən Müsavat Partiyasının qərargahına pulparalar torba-torba axırmış!

Əbəs deyil ki, İqbal Ağazadə 2003-cü ilin oktyabrında Müsavatın qərargahından külli miqdarda pulun daşınması haqqında münasibət bildirib. Onun ciddi siyasətçi olduğunu da nəzərə alsaq, əslində, iddiasının həqiqət olduğuna da şübhə etməyə bilərik. Çünki sözügedən ərəfələrdə başda Norveçin Azərbaycandakı səfiri Steynar Gil olmaqla bir çox xarici səfirliklər və eləcə də Soros fondunun Bakı ofisi radikal müxalifəti öz ardıcıl maliyyələri ilə dəstəkləyirdilər. Bu isə faktdır!

**Edə bilərdi, amma etmir...**

İndi İsa Qəmbər İqbal Ağazadənin ittihamlarını, yaxud faktlarını rədd edir, "şayiələrə baş qoşmaq olmaz. Əlində fakt varsa, ortaya qoysun. Bu cür böhtanlara yer yoxdur", tipli ifadələri ilə özünü "mələk" kimi təqdim edir, onun dediklərinin mənasız, əsassız olduğunu, həqiqətəuyğun olmadığını bildirir və s. Ancaq kimə deyirsən?



Bilən-bilir ki, həmin vaxtlarda İqbal Ağazadə ilə İsa Qəmbərin arasından su da keçmirdi və onların arasında çoxsaylı sirrlər mövcud idi. Onlardan da biri məhz pulpara məsələsidir. Əgər bu gün İsa Qəmbər sahib olduğu nəyi varsa, məhz qərargahdan daşıtdırdığı pul torpaları hesabına nail olub, dövlətinin, ölkəsinin maraqlarını xarici ağalarına satması ilə. İndi də çəkilib-oturub bir kənarda, sanki heç nə olmayıbmış kimi. Məgər bircə dəfə də özünü dürüst aparıb İqbal Ağazadənin ittihamları qarşılığında "bəli, həqiqətdir, dövlət maraqlarını satıb, pullar qazanmışam və bu gün həmin əməllərimə görə peşmanam" etirafını edə bilməzdimi? Çünki onun cürəti çatmır.

**Bütün bunların yerinə isə yenidən ortalığa çıxıb özünü "istefa verən partiya rəhbəri nümunəsi" tipində zorla ictimai rəyə sırıyır, deyir tutar qatıq, tutmaz ayran...**

Nə isə, Ümid sədrinin ittihamını, ya da xatırlamasını bildik, özü də ciddi qəbul etdik. Müsavatın sabiq başqanının isə nala-mıxa döyəcləməklə sovet nomenklaturası tipində "şayiələrə uymayın!" cavabını qeyri-ciddi qəbul etdik. Bəlkə Müsavatın sabiq başqanı o möhtəşəm qalyanından dərin və siyasi xarakterli qullab vurmaqla həyatında bir dəfə də doğru tüstü püləsin (?).

***Rövşən RƏSULOV***

***P.S.** Yeri gəlmişkən, Ümid Partiyasının sədri İqbal Ağazadə Allahtərəfi həmişə deyib ki, İsa Qəmbər onları meydanda tək qoyub-qaçdı...*

# Səhifələrin hər biri saxtadır və məqsəd cəmiyyətdə çaşqınlıq yaratmaqdır!



## Elşad Hacıyev detalları açıqladı

***Son aylarda əhali arasında yeni narkotik vasitə, "patı" adı ilə tanınan metamfetaminin geniş yayılması və əvvəlki ilə müqayisədə daha ucuz olması ictimaiyyətdə narahatlıq yaradıb.***

Çünki ucuz olması daha çox insanın bu bəlaya düçar olmasına zəmin yaradır. Deyilənlərə görə, bu bəlaya daha çox gənc nəsil düçar olur. Məlumatlarda qeyd olur ki, bu narkotik maddənin yaratdığı psixoloji düşkünlükdən sonra gənclərdə intihara meyillilik artır. Hətta iddia olunur ki, son zamanlar daha çox diqqət çəkən gənc və yeniyetmələrin intiharları arxasında bu cür nakotik satışını edən şəbəkələr dayanır.

Maraqlısı ondadır ki, bir çox sosial şəbəkələrdə açıq-aşkaranə bu narkotikin satışı həyata keçirilir. Təkcə "İnstagram" sosial şəbəkəsində yüzlərlə "Patı" adına səhifələrə rast gəlmək olur. Həmin səhifələrdə paylaşımlar edərək müştəri cəlb edilir, insanlarla ünsiyyət qururlar, bəzi hallarda pulsuz "patı" təklif edirlər. Məqsəd isə həmin şəxsləri aludəçiyə çevirməkdir.

Bəs bu kimi hallar qarşı Daxili İşlər Nazirliyi hansı işləri həyata keçirib və bundan sonra da keçirməyi nəzərdə tutur? Məsələ ilə bağlı SİA-ya açıqlamasında Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev bunları deyib: "Narkotik vasitələrinin dövriyyəsi ilə əlaqəli istənilən yerdə, sosial şəbəkələrdə, xüsusən bununla bağlı daxil olan, araşdırılan, yoxlanılan və ayrı-ayrı sosial şəbəkə üzvlərindən, vətandaşlardan daxil olan məlumat xarakterli müraciətlər dərhal nəzarətə götürülərək araşdırılır. Sosial şəbəkə seqmentlərində yoxlanılan, aparılan araşdırmalarla müəyyən olunub ki, ayrı-ayrı sosial şəbəkə seqmentlərində narkotik vasitələrin açıq satışı deyilən, paylaşılan həmin o səhifələr saxtadır. Həmin səhifələr xaricdən idarə olunan ayrı-ayrı narkoşəbəkələr tərəfindən cəmiyyətdə çaşqınlıq yaratmaq üçün yaradılmış səhifələrdir. O səhifələrin heç birindən narkotik alış-verişi, satışı müəyyən edilməyib.

Sosial şəbəkə seqmentlərində yalnız narkotik vasitələrin satışında, onun dövriyyəsində maraqlı olan şəxslər (hansı ki, bunlar xaricdən idarə olunur) kimisə əməkdaşlığa cəlb etmək, narkokuryerə çevirmək kimi sosial şəbəkənin imkanlarından istifadə edirlər. Ancaq sosial şəbəkələrdə xüsusi narkotik vasitələrin şəkillərini, onların ayrı-ayrı tele-kursorlarının fotoları ilə bəzədilmiş, fotoları ilə yayımlanan o səhifələrin heç birində narkotik satışı aşkar olunmayıb. Onların hər biri saxtadır və cəmiyyətdə çaşqınlıq yaratmaq məqsədi ilə yaradılıb və bununla bağlı sosial şəbəkə üzvlərinə də bizim vasitəmizlə müraciət edərək bildirilir ki, həmin səhifələrin mövcudluğu və o səhifənin mahiyyətindən irəli gələn narkotik vasitələrin təbliği və satışı ilə bağlı hər biri saxtadır və həmin səhifələr vasitəsi ilə narkotik satışı həyata keçirilmir".

***Aytac Əliyeva***

# Dağıdıcı müxalifətin növbəti xalq "yanğısı"



**Əli Kərimli anti-dövlətçilik çıxışlarına görə...**

Kifayət qədər faktlara əsaslanan amillərdən biri də budur ki, birillik AXC-Müsavat hakimiyyətinin bəzi təmsilçiləri istər iqtidarda olduqları dövrdə, istərsə də müxalifətdə olduqları zaman yalnız anti-milli, dağıdıcı mövqe tutaraq, Azərbaycan dövlətçiliyini, onun uğurlarını, müstəqilliyini sarsıtmaq məqsədilə əməli fəaliyyət göstəriblər. Bu sıralamada isə ilk yeri tutanlardan biri və birincisi Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri Əli Kərimlidir. O da sirr deyil ki, müxalifətçi partiya sədri adı altında maskalanan Kərimli və onun yandaşları, ümumiyyətlə, yaxın ətrafı qarşısında dayanan əsas məqsəd dövlətimizin strateji hədəflərinin sabotaj olunması, dövlətimizin beynəlxalq aləmdə qazandığı yüksək nüfuzuna xələl gətirməsidir. Bu baxımdan, biz çoxsaylı sübutlar gətirməklə nəticəyə gələ bilərik ki, Əli Kərimlinin fəaliyyəti və irəli sürdüyü iddialar ermənilərin Azərbaycana qarşı həyata keçirdiyi informasiya müharibəsinin başlıca istiqamətləri ilə tam şəkildə üst-üstə düşür. Artıq bu, bir aksiomaya çevrilib.

Sadə bir fakta əsaslanaq - istər Aprel ayının ilk dörd günündə, istərsə də 44 günlük müharibənin 30 illik torpaq, yurd həsrətinə son qoyması Əli Kərimli və onun yaxın ətrafı daxildə vəziyyəti gərginləşdirməyə xidmət edən çağırışlar irəli sürməyə başlayıb. Əsas məqsəd ictimai rəyi yanlış istiqamətə yönəltmək, xalqın vətənpərvərlik ruhunu, xalqla hakimiyyət arasında birliyi sarsıtmaq və bununla da dövlətimizin əldə etdiyi mühüm nailiyyətin əhəmiyyətini heçə endirməkdir.

Ancaq özünün siyasi fəaliyyətini büsbütün sosial şəbəkələr üzərində quran satqın və əxlaqsız AXCP sədri Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Leyla Yunus, Sevinc Osmanqızı və bu kimi zatıqırıqlar Azərbaycanın ildırım sürəti ilə, bəli, ildırım sürəti ilə əsrlər boyu görünməyən Qələbə, inkişaf, özü də ildırım sürəti ilə uğurlarımızı görüb daxilləri iylənə-iylənə qalaraq sosial şəbəkələrdə çirkin əməllər sahibi olduqlarını xalqı mitinqə çağırışları edirlər. Həyasızlıq bu qədər? Hansı xalqı mitinqlərə çağırırsınız? Bu, o Azərbaycan xalqıdır ki, ölkənin Ali Baş Komandanı bir dəfə çağırış etməklə bütün xalq, bütün türk dünyası müsəlləh əsgər kimi ayağa qaxdı. Bu, o Azərbaycan xalqıdır ki, əsrlər boyu olmayan Qələbə Zəfərinə nail oldu. Bu, o çağırış idi ki, 30 illik dədə-baba torpaqlarını həmin "canavar əsgərlərimiz" mənfur donuz iyi verən, faşist xisləti işğalçı Ermənistan əsgərlərini papaqsız, şalvarsız iti qovan kimi qovaraq 44 gün ərzində azad etdi. Ancaq elə sosial şəbəkələrdə hay-küy salmaq özünüzə qalır. Və bu gün uğurlu iqtisadi addımlar atıldıqda...

**Əli Kərimli kimilərin xalq "yanğısı"...**

Baxın, əgər yadınızdadırsa, manatın dollara nisbətdə ucuzlaşmasında öz xeyri üçün istifadə etməyə cəhd göstərən Ə.Kərimli burada süni ajiotaj yaratmaq məqsədini əsas olaraq hədəf götürdü. Ancaq Azərbaycan xalqı, yaxşı bilir ki, Ə.Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Leyla Yunus, Sevinc Osmanqızı, Qənimət Zahid, Vidadi İsgəndərli... kimi fərdlərin əsl niyyəti nədir. Məqsəd öz murdar istəklərini - ölkədə sosial vəziyyəti pozmaq, "bəlkə qaytardılar" xəyallarını gerçəkləşdirmək. Ancaq anlamırlar ki, onların qatarı çoxdan gedib, xalq onları çoxdan tarixin zibilliyinə atıb, üstündən də bir təpik vurub ki, bəsdir!!! Batsın səsiniz!!! Ancaq "qozbeli qəbir düzəltsə" də, görünür, bu xəyanətkar, satqın və əxlaqsızları heç qəbir də düzəltməyəcək. Çünki beli əyri doğulublar, əyri də qalacaqlar. İndi də qaz və işığın qiymətinin nəyə görə artmasını belə anlamayaraq AXCP sədri Əli Kərimli sosial şəbəkələrdən xalqı mitinqə çağırır: "İnsanlarımız bilməlidir ki, bu bahalaşmanı ancaq mitinqə çıxmaqla həll edə bilərik. Hiss etsək ki, Azərbaycan cəmiyyəti kütləvi etirazlara çıxır, təşkil edəcəyik".

**Ə.Kərimli nəyi həll edəcək? Ataların bir sözü var: "Keçəl çarə bilsə, öz başına əlac edər"**

Sual olunur: kimin əlinə oynayırsan, Ə.Kərimli? Bir də, haqq nazilər, amma üzülməz. Bu fikri deməyə haqqım var. Çünki 28 ildən bəri erməni yalı ilə yemlənən sən Ə.Kərimli cinayətkarı, Vətən xainin adını "siyasi məhbus" qoyaraq, cinayətkarın müdafiəsinə qalxırsan. Məqsəd xarici qüvvələrə nökərçilik etməklə qrantlar qoparmaqdır. Ancaq belələri bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxanın gözlərinə qan damar, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri isə tarix heç vaxt bağışlamır.

**Tural Abbaslı: "Qiymət artımı siyasi konyuktura xarakteri daşımır"**

"Müxalifət yenə də öz çirkin əməllərindən əl çəkmir". Sərnişindaşımada tariflərin artırılması ilə bağlı müxalifət düşərgəsində olanların arqumentlərinə münasibət bildirən "AG" Partiyanın lideri Tural Abbaslı bildirib ki, hər bir qiymət artımı istənilən normal siyasi mühitə malik olan dövlətlərdə müxalifət üçün bir bəhanədir və müxalifət həmişəki mərəzindədir: "Ölkədə baş verən ictimai-siyasi hadisələrə müxalifət liderləri, ən yaxşı halda, sosial şəbəkələrdə anormal statuslar yazmaq, mənasız bəyanatlar verməklə kifayətlənirlər. Bu statusların da əsasını müxalifət liderlər tərəfindən xalqın qınanılması dayanır. Bildirilir ki, mitinqlərə xalq gəlmir. Qaldı ki, Tarif Şurasının çıxardığı qərarı müxalifəti "ayıltdı". Yenə də həqiqətə uyğun olmayan məlumatlar verməklə, ölkədə təxribata yol açmaq, bununla da diqqəti özlərinə cəlb etməyə çalışırlar. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycanda sərnişindaşıma qiymətləri əksər MDB və region ölkələri ilə müqayisədə aşağıdır. Həmişə olduğu kimi, hökumət qiymət artımı ilə bağlı aşağı təbəqənin maraqlarını nəzərə alır. Qiymət artımlarına müvafiq olaraq, əhalinin də sosial gəlirlərinin artırılması istiqamətində müvafiq qərarlar qəbul edilir. Bu isə, bir daha sübut edir ki, Azərbaycan hökumətini düzgün iqtisadi siyasət yürütməməkdə ittihamlayan müxalifətin irəli sürdüyü bütün arqumentlər əsassızdır".

Dağıdıcı müxalifət anlamalıdır ki, Azərbaycanda qiymət artımı siyasi konyuktura xarakteri daşımır və sırf iqtisadi maraqlar nəzərə alınaraq, belə qərar qəbul edilib. Ölkə müxalifətinin vəziyyətdən sui-istifadə edərək əhalinin narazı, aztəminatlı təbəqəsini öz tərəfinə çəkməyə çalışması isə heç cür mümkün deyil. Çünki insanlar müxalifəti qətiyyətlə rədd edir.

*Rəfiqə HÜSEYNOVA*

---

# AÇIQLAMA: "ABŞ da Fransa kimi Qarabağa status vermək üçün əlindən gələni edir"



"ABŞ-ın müdafiə naziri Tiflisdə səfərdə olarkən Türkiyənin dəfələrlə təklif etdiyi və Rusiyanın dəstəklədiyi yeni danışıqlar formatına qarşı çıxıb. ABŞ rəsmisinin belə mövqe tutmasında və region üçün ciddi perspektivlər vəd edən 3+3 formatına qarşı çıxmasında qeyri-adi heç nə yoxdur. Çox təəssüf ki, dünyanın supergücü olan bu dövlət Türkiyənin təklif etdiyi və aktiv iştirak etdiyi bütün təkliflərə son dövrlər eyni münasibəti göstərir". Bunu Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov SİA-ya açıqlamasında deyib.

Onun sözlərinə görə, hərbi əməliyyatların uğurla davam etdiyi günlərdə - 31 oktyabr 2020-ci il tarixdə, ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Robert O"Brayen açıq şəkildə bəyan etdi ki, Türkiyənin vasitəçilik etməsi və sülhyaratma işində iştirakı barədə irəli sürülən uğursuz təşəbbüslər ABŞ və Ermənistan üçün qəbuledilməzdir. Məlumdur ki, 3+3 danışıqlar formatı ideyasını Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan ilk dəfə 2008-ci ildə səsləndirmişdi və o dövrdə Azərbaycan istisna olmaqla, digər region dövlətlərindən dəstək görməmişdi. Türkiyə Prezidenti bu təklifi 44 günlük müharibənin gedişində təkrar etdi və gözlənilmədən ilk dəstək İrandan gəldi. ATƏT-in Minsk Qrupunun fəaliyyətini kəskin tənqid edən qonşumuz münaqişənin aradan qaldırılması istiqamətində danışıqların 3+3 formatında aparılmasını zəruri saydığını bəyan etdi. Son günlər Minsk Qrupunun vasitəçilik təşəbbüsünü ələ almasına imkan vermək istəməyən Rusiya bu təklifə açıq dəstək verdi. Rusiya xarici işlər naziri iranlı həmkarını qəbul edərkən bu məsələni müzakirə etdiklərinin üzərində xüsusi dayandı və hər iki dövlətin bu formatı dəstəklədiyini qeyd etdi".

A.Səmədov onu da bildirib ki, Ermənistan üçün bu formatın qəbuledilməz olduğunu açıq şəkildə ifadə etməkdən çəkinən N.Paşinyan Rusiya prezidenti ilə görüşdə ehtiyatla təklifə qarşı çıxdı və Rusiyanın Minsk Qrupunun həmsədri olduğunu və bu səbəbdən qrupu oyundankənar vəziyyətdə qoymalı olmadığını ona xatırlatmaq məcburiyyətində qaldı: "Gürcüstan xarici işlər naziri David Zakaliani - "Rusiya ilə birlikdə bu formatda iştirak çətin olsa da, Gürcüstan bu cür geopolitik layihələrdən kənarda qalmamalı, təmsil olunmalıdır"-dedi və 3+3 formatında iştiraklarının zəruri olduğunu ehtiyatla olsa da nəzərə çatdırdı. Görünür, Minsk Qrupunu danışıqlardan kənarda qoyan bu formatın baş tutacağından çəkinən ABŞ müdafiə naziri bu birliyin qarşısını almaq üçün Tiflisdə həmin bəyanatı verdi. Çünki, ABŞ digər həmsədr Fransa kimi Qarabağa status vermək üçün əlindən gələni edir və 3+3 formatı bu məqsədə nail olmaqda ciddi problem yarada bilər. Yeri gəlmişkən, Azərbaycan prezidenti dəfələrlə qeyd edib ki, Qarabağ münaqişəsinə münasibətdə bizimlə Rusiya arasında fikir ayrılığı yoxdur. ATƏT-in digər iki həmsədrini qorxudan məqam da budur və bu səbəbdən onlar regionumuza dayanıqlı sülh gətirəcək danışıqlar formatını pozmaq üçün əllərindən gələni edirlər və edəcəklər".

*Gülyana*

---

# "Nar" ən böyük Azərbaycandilli səsli kitabxanaya dəstəyini davam etdirir

"Nar"ın dəstəyi ilə ölkənin ən böyük səsli ədəbiyyat kitabxanası olan "Canlı kitab" layihəsi davam edir. "Radio Antenn" 101 FM-lə birgə hazırlanan layihə çərçivəsində indiyədək dünya və Azərbaycan ədəbiyyatından 39 müəllifin 329 əsəri ana dilimizdə audiokitab şəklində "YouTube" kanalında yerləşdirilib. Müxtəlif janrlarda və həcmlərdə olan bədii əsərləri "Canlı kitab" kanalında "Nar"ın yüksəksürətli interneti vasitəsilə istənilən yerdən rahatlıqla dinləmək olar.




Layihə həftənin şənbə və bazar günləri saat 12:00-dan 14:00-dək "Radio Antenn" 101 FM dalğasında, eyni zamanda radionun və "Canlı kitab" verilişinin rəsmi "Facebook" səhifələrində canlı yayımlanır, daha sonra antenn.az və "YouTube" səhifəsində yerləşdirilir.

Qeyd ed'k ki, layihənin məqsədi mütaliəni hər kəs, o cümlədən, görmə məhdudiyyətli şəxslər üçün daha əlçatan etməkdir. Layihə çərçivəsində əsərlərin toplandığı elektron daşıyıcıların görmə qabiliyyəti itirmiş və görmə qabiliyyəti zəif olan insanlara paylanması nəzərdə tutulur.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 91%-ni əhatə edir və 8780-dan artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

Səs

21 oktyabr
2021-ci il



# "Milan"dan yeni antirekord...

*"Milan" yeni antirekorda imza atıb. Qol.az xəbər verir ki, bu, futbol üzrə UEFA Çempionlar Liqasının qrup mərhələsinin 3-cü turunda "Portu"ya uduzmaqla (0:1) qeydə alınıb.*

Beləliklə "Milan" qrup mərhələsində ardıcıl 3 oyunda məğlub olub. Komanda əvvəlki turlarda "Liverpul" (2:3) və "Atletiko"ya (1:2) uduzub. Bu da "Milan" tarixinin antirekordu hesab edilir.

Qeyd edək ki, "Milan" 7 illik fasilədən sonra bu il yenidən Çempionlar Liqasının qrup mərhələsində oynamaq hüququ qazanıb.

# Evdə COVID-19 xəstəsi varsa yoluxma riskini necə azaltmaq olar



***İnsan orqanizmi immun sisteminin işi sayəsində COVID-19-un öhdəsindən gələ bilər və ya yoluxmuş hissəciklərin yalnız çox kiçik bir hissəsini aldıqda infeksiyanı asanlıqla keçirə bilər. Bu səbəbdən yeni yoluxmuş insanın qaldığı evdə digərlərinin maska taxması lazımdır.***

Maskanı tez-tez dəyişdirmək lazımdır. O zaman biz ailə üzvlərini daha böyük əminliklə infeksiyadan qoruya bilərik. "Medikforum"da dərc olunan yazıda infeksiyanın profilaktikasının digər tədbirlərindən bəhs edir.

Pəncərələri açaraq mənzili mümkün qədər daha tez-tez havalandırmaq lazımdır - təmiz hava axını otaqdakı virus hissəciklərinin konsentrasiyasını azaldır. Müntəzəm olaraq otağı nəm parça ilə silmək.

Evin bütün səthlərini, xüsusən də ən çox toxunulan səthləri xlor tərkibli vasitə ilə təmizləmək.

# ABŞ-da insana donuz böyrəyi köçürülüb

Nyu-Yorkda cərrahlar insana geni dəyişdirilmiş donuz böyrəkləri köçürülməsi üzrə uğurlu əməliyyat həyata keçiriblər. "İki sahil" New York Times qəzetinə istinadla xəbər verir ki, Nyu-York Transplantologiya İnstitutunun direktoru Robert Montgomerinin sözlərinə görə, köçürülmüş orqan normal işləyir. O qeyd edib ki, pasiyent süni nəfəs aparatına qoşulmuşdu və onun beyni ölü vəziyyətdə idi.



Tədqiqatda iştirak edən transplantasiya cərrahiyyəsi professoru keçirilmiş əməliyyatı "nəhəng dönüş və çox böyük nailiyyət" adlandırıb.

Məqalə müəllifi hesab edir ki, əgər alimlər insanlara köçürmək üçün donuz orqanları yetişdirə bilsələr, bu, transplantasiya növbəsinə dayanan 100 minə yaxın amerikalının həyatını xilas edə bilər. Onların təxminən 90 mini məhz böyrəyə ehtiyac duyur.



# Ancelina Coli və 5 uşağı qalaya qatılıb

***"Oskar" mükafatlı amerikalı aktrisa Ancelina Coli, ailəsi ilə birlikdə fantastik bilim qurğu janrında çəkilən "Əbədi" filminin premyerasına qatılıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, tədbirdə Coli qədər uşaqlarına da maraq çox idi.***

Hollivudun ən gözəl qadınlarından biri olaraq göstərilən, 5 uşağı ilə birlikdə Hollivudun "Dolby" teatrında keçirilən premyerada dünya şöhrətli aktrisa olan Coli qırmızı xalçada 5 uşağı ilə birlikdə foto çəkdirib. Ancaq Ancelina Colinin 17 yaşlı oğlu vyetnamlı oğlu Pax Thienin qalaya gəlməməsi diqqətdən yayınmayıb. Colu, məşhur bir geyim markasının uzun paltarında qırmızı xalçada gəzib. Sadə görünüşə üstünlük verən məşhur ulduz, çənəsinə taxdığı aksessuarla diqqətləri cəlb edib. Qızı Zaharanın da qala gecəsi üçün anasının qarderobundan bir paltar geyindiyi ortaya çıxıb. Ancelina Colinin 2014-cü il Oskarında ən çox sevdiyi geyimi bu dəfə qızının üzərində olub.

***Aytac Əliyeva***

# İspaniyada sakinlərə pul paylanacaq?



**İspaniyanın Santander şəhər rəhbərliyi sakinlərin eko-nəqliyyata keçməsini sürətləndirmək və bunu maliyyələşdirmək üçün qərar qəbul edib. Belə ki, hökumət elektrovelosiped ala bilmələri üçün sakinlərə 350 avro pul verəcək.**

"İki sahil" xəbər verir ki, yeni təşəbbüs üçün hökumət 75 min avro ayıracaq - bu, 215 elektrikli velosiped almaq üçün kifayətdir. İdarə ümid edir ki, bu tədbir sakinləri planet üçün təhlükəsiz nəqliyyat seçiminə sövq edəcək və şəhər mühitini piyadalar və velosipedçilər üçün daha rahat edəcək.

Proqrama ən az altı ay rəsmi olaraq Santanderdə yaşayan 18 yaşdan yuxarı şəxslər müraciət edə biləcəklər. Elektrikli nəqliyyatları yalnız yerli mağazalarda satın almaq mümkündür. Hökumət bu şəkildə şəhər sahibkarlarını dəstəkləmək istəyir.

Bundan əlavə, şəhər pulsuz velosiped təmiri üçün kiçik stansiyalarla təchiz ediləcək.

# "Facebook"un adı dəyişdirilir - yeni ad bu tarixdə baş tutacaq




Dünyanın ən populyar sosial media saytlarından olan, 1,35 milyard üzvü olan "Facebook", şirkətin adını dekriminallaşdırmaq üçün tədbirlər görüb. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, "Facebook" şirkətinin Baş direktoru Mark Zukerberq oktyabrın 28-də keçirilən konfransda şirkətin yeni adını elan etmək niyyətindədir. Lakin o səbirsiz olaraq, yeni adı daha tez mətbuatla bölüşə bilər. Xarici KİV-in məlumatına görə, "Facebook"un Baş direktoru Mark Zukerberq guya "Connect" konfransında şirkətin yeni adını elan etməyi planlaşdırıbmış.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4600**